İRFAN

№ 83 Oktyabr 2013 İctimai fikir jurnalı 3 AZN

QƏDƏR ANLAYIŞIMIZA SANCILAN

ZƏHƏRLİ FAL OXLARI

Redaktordan

İRFAN
Oktyabr/2013/№:83
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Baş redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompüter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2013 © All Rights Reserved
Created and supported by "irfan"
Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işləri:
Tel: 050 379 01 79

Şikayət və təkliflériniz üçün
bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Əziz Oxucu!

Məxluqatın ən şərəflisi olaraq yaradılan insan oğlu heç bir zaman şeytan vəsvəsəsindən uzaq qalmamışdır. Cənnətə gedən yolun əngəlləri olan haramlar hər gün insanı bir az daha bu yoldan uzaqlaşdırır. Zəmanəmizdə ən çox işlənən haramlardan biri heç şübhəsiz ki, falçılıq və cadugərlikdir. Kimisi marağından, kimisi əyləncə olsun deyə, kimisi şeytanlaşmış xislətindən insanlara zərər vermək üçün bu yola baş vurur. Bəzi insanlar var ki, hər səhər efirdə gedən ulduz falını izləməmiş evdən belə çıxmır. Bütün bunlar heç şübhəsiz ki, daxilimizdəki mənəvi boşluq və qədər anlayışımızdakı nöqsanlardan irəli gəlir. Öldürənin və dirildənin, ruzi verənin, xeyir və zərər sahibinin, bəlaları dəf edən varlığın yalnız Allah olduğuna layiqincə inanan insan əsla bu kimi xətalara düşməz.

Jurnalımızın bu sayını **"qədər anlayışımıza sancılan zəhərli fal oxları"**na həsr etdik. Falçılıq və cadugərlik mövzusuna geniş yer ayırdıq. Fal haqqında ümumi araşdırma yazısı olan *"Zəhərli fal oxları"* məqaləsində cəmiyyət arasında tez-tez səslənən bir sıra fikirlərə aydınlıq gətirildi. *"Şeytan xisləti"* başlıqlı yazıda bu yola düşən insanların imanının təhlükə ilə üzləşdiyini oxuyacaqsınız. *"Həzrət Peyğəmbərə cadu edildimi?"* məqaləsində Allah Rəsuluna da cadu edildiyini oxuyacaq və belə bir hadisə qarşısında necə davranacağımızı öyrənmiş olacaqsınız. Mövzunun əhəmiyyətini diqqətə alaraq bu haqda ilahiyyatçı-mütəxəssis Elşad Mahmudovdan geniş müsahibə aldıq. Onu da siz oxucularımıza təqdim edirik.

Oktyabr ayı eyni zamanda səbirsizliklə gözlədiyimiz Qurban bayramı günlərinin də təsadüf etdiyi bir aydır. Məhz bu baxımdan *"Şüurun ilahi hüzura meracı"* adlı məqalədə qurbanın mahiyyəti və ucalığı haqda oxuyacaqsınız. *"Kəsilən ata-övlad məhəbbəti"* başlıqlı yazıda isə qurbanın əslində qəlbimizdə bütləşdirdiyimiz dünya sevgilərini Allah yolunda fəda etmək olduğunu görəcəksiniz. Möhtərəm Osman Nuri Topbaşın *"Haqq dostlarından hikmətlər"* silsiləsindən İmam Rəbbaninin tövsiyələri davam edir. Bununla yanaşı Qurbana həsr etdiyi gözəl bir yazısını da bu sayımızda sizlərə təqdim edirik. Jurnalımızın bir-birindən gözəl səhifələri ilə yenidən görüşünüzə gəlmək ümidilə...

Bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını Qurban bayramı münasibətilə təbrik edirik!

Sorma hər kişinin əslin izzətindən bəllidir
Söhbəti irfan görənlər xidmətindən bəllidir.
Nəsimi

Fala Baxmaq və Baxdırmaq!!!
Müşfiq Xəlilov 6

Şeytan Xisləti
Nurəddin Rüstəmov 8

Həzrət Peyğəmbərə (s.Ə.S)
Cadu Edildimi?
Rüfət Şirinov 14

Həyat Dəftərindən
Ülvi Məmmədov 17

İbrahim Peyğəmbərin Qurbanı
Kəsilən Övlad və Ata Məhəbbəti
İlham Sovqatov 20

Quran və Sünnəyə Münasibətimiz
Saleh Şirinov 22

İlahi Hədləri Qorumaq
Mübariz Əlioğlu 24

Bir Ayə
Fuad Quliyev 26

Bir Hədis
Səfa Muradov 27

Quran Gündəliyi
Kamran Məmmədov 38

Quranda Boşanma(ma)ğa Gedən Yol
Dr. Əhməd Niyazov 40

Soyuq Divarlar Arxasından
Salih Zeki Merıç 42

"Wi-fi Yoxdur, Bir-Birinizlə Danışın!"
Eldar Kərimov 44

Əməliyyat Təəssüratları
Adem Şahin 46

Sürücülərimiz və Piyadalarımız
Alpay Əhməd 48

Siqaretin Zərərləri
Vuqar Həsrətov 50

Sual-Cavab 52

Xəbər 54

ZƏHƏRLİ FAL OXLARI NURLAN MƏMMƏDZADƏ 3

ŞÜURUN İLAHİ HÜZURA MERACI: QURBAN ELŞƏN RZAYEV 18

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR İMAM RƏBBANİ (Q.S) -5- OSMAN NURİ TOPBAŞ 28

İLAHİYYAT ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELŞAD MAHMUDOV İLƏ REPORTAJ 10

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

ZƏHƏRLİ FAL OXLARI

İlk insan və ilk peyğəmbər olan Həzrət Adəmin (ə.s) cənnətdə qadağan olunmuş ağacla imtahan edilməsi prosesi onun cənnətdən qovulması ilə dünyada davam etdi. Beləliklə bəni-Adəmin müxtəlif imtahanlara tabe tutulması gerçəkləşdi. İnsanın iman və küfr qovğasında məğlub olmasının və ilahi imtahandan üzüağ çıxmamasının başlıca səbəbi heç şübhəsiz ki, nəfs əngəlini aşa bilməməsidir. Qurani-Kərimdə Həzrət Yusifin dilindən ifadə olunan **"Şübhəsiz ki nəfs davamlı olaraq pisliyi əmr edir"** (Yusuf, 57) ibarəsi axirət yolçusu olan insanın daim nəfsani təlqinlərə məruz qalmasından xəbər verir. Nəfs və şeytan durmadan insanı tələyə salmaq və onu imanından məhrum etməyə səy göstərir. Bəzən gözümüzə yaxşı görünən və bizə ağlabatan gələn bir sıra işlər də məhz insan oğlunun bu iki düşməni tərəfindən qurulmuş tələlərdir əslində. Bu xüsusda veriləcək xeyli misallar olmaqla bərabər üzərində duracağımız məsələ son zamanlar ölkəmizdə, ümumiyyətlə isə dünyada geniş rəvac tapmış **fal və cadugərlik**dir. Hələ qədim zamanlardan bəri insanların taleyi barədə əvvəlcədən "xəbərlər" vermək, keçmişdə baş verən hadisələrdən söz açmaq fal, baxıcılıq, kəhanət və s. adlandırılmış, hər hansı zərəri dəf etmək, yaxud da kiməsə müəyyən qüvvələr vasitəsilə təzyiq göstərmək, zərər vermək cadugərlik adlandırılmışdır. Allahın yer üzünə göndərmiş olduğu bütün peyğəmbərlər bu kimi işlərin haram olduğunu söyləmiş və ilahi kitablarda bu haqda qadağanedici ayələr öz əksini tapmışdır. O cümlədən İslam dinində də falçılıq, fala baxdırmaq, fal açmaq, həmçinin cadu-sehr adlanan işlərlə

məşğul olmaq qətiyyətlə haram edilmişdir. Maidə surəsinin 90-cı ayəsində imanlara və qədər anlayışına sancılan zəhərli **"fal oxları"**nın əslində şeytan əməli olduğu ifadə edilir. Həzrət Peyğəmbərin də hədislərində falın haram olmasını bildirən qəti hökmlər mövcuddur. Bir sözlə, İslam dini falı və cadugərliyi birmənalı şəkildə haram elan edir.

Cəmiyyətimizdə falla bağlı müxtəlif suallarla qarşılaşmaq mümkündür: fal doğrudurmu, bir insanın gələcəyindən xəbər vermək, cadu vasitəsilə kiməsə zərər vermək mümkündürmü və s... Bu suallara cavab vermədən əvvəl onu qeyd edək ki, falçılıqla məşğul olanları ümumiyyətlə iki qrupa ayırmaq mümkündür: 1. cinlərdən və şər qüvvələrdən istifadə edərək "həqiqi" falçılıqla məşğul olanlar; 2. falçı olduğunu iddia edərək (heç bir qüvvədən yardım almadan) insanları aldadanlar. Haşiyə çıxaraq onu da qeyd edim ki, hər iki halda bu işlə məşğul olmaq və bu kimi insanlara müraciət etmək haramdır. Falçının guya Qurani-Kərimlə fala baxdığını iddia etməsi isə əlbəttə ki, insanların Qurana olan inamından sui-istifadədən qaynaqlanır. Burada qeyd edək ki, Allahdan başqa heç bir varlıq əsla və əsla qeybdən xəbər verə bilməz. Ənam surəsinin 59-cu ayəsində buyurulur: **"Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir".** Nəml surəsinin 65-ci ayəsində isə belə buyurulur: **"De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!"** Ona görə də heç bir bəndənin qeybdən xəbər vermək kimi səlahiyyəti yoxdur. Əksini iddia etmək yalançılıqdan başqa bir şey deyil. Çünki Allahın ən çox sevdiyi və seçərək bəşəriyyətə qiyamət gününə qədər peyğəmbər təyin etdiyi insan Həzrət Muhammməd belə bu üstünlüyə sahib olmamışdır. Haqq-Təala Qurani-Kərimdə bu barədə belə buyurur: **"De: "Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, (özüm üçün) daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı."** (əl-Əraf, 188) Buradan gördüyümüz kimi nə hansısa bir peyğəmbər, nə də sıravi vətəndaş qeybə dair xəbərlərə vaqif deyil. O ki qaldı falçıların keçmişə dair verdikləri doğru xəbərlərə, bunun səbəbi ya həmin falçının yanına gələcək olan adam haqqında daha əvvəl onu tanıyanlardan məlumat alması, yaxud da falçının bu xəbəri cinlərdən öyrənməsidir. Yuxarıda qeyd etmişdik ki, şeytanın insanları yoldan çıxarma yollarından biri də fal və cadudur. Görünməyən qüvvələrin yardımı ilə fala baxanlar hər nə qədər ilahi qüvvələrdən yardım aldıqlarını iddia etsələr də onlara bu işdə kömək edən varlıqlar şeytana əsir olmuş cinlərdir. Dini mətnlərdən öyrəndiyimizə görə cinlər insanlardan daha uzunömürlüdürlər və bir cin yeddi yüz, min il, hətta daha artıq yaşaya bilir. Uzunömürlü olduqları üçün hansısa bölgədə insanlarla eyni məkanı paylaşan cinlərin o məkanda bir neçə il əvvəl insanlar tərəfindən işlənənləri görmələri mümkündür. Belə olan təqdirdə falçının kiminləsə və ya hansısa hadisə ilə bağlı keçmişə aid məlumat vermələri mümkündür. Lakin gələcəyə və qeybə aid verilən xəbərlər tamamən uydurma və xəyal məhsuludur. Bu yalanın falçı tərəfindən, yoxsa ona yardım edən şeytan və cin tərəfindən uydurulması nəticəni dəyişmir. Həzrət Peyğəmbərin də buyurduğu kimi falçılar bir doğruya yüzlərlə yalan qarışdırıb onu insanlara satarlar. Məqsədsə insanları istismar etmək və imanlarını oğurlamaqdır. İndi qeyd edəcəyimiz ayə hətta falçılara yardım edən cinlərin belə qeybi bilmədiklərini açıq şəkildə ortaya qoyur: **"Sonra (Süleymanın) ölümünü hökm**

etdiyimiz zaman onun öldüyünü onlara (cinlərə) ancaq (Süleymanın) əsasını yeyən bir ağac qurdu xəbər verdi. (Süleymanın əlini dayayıb durduğu əsa sınandan sonra) o (ölmüş vəziyyətdə) yerə yıxıldıqda cinlərə bəlli oldu. Əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab (məşəqqətli iş) içində qalmazdılar." (Səba, 14) Ayəyə qısa izah verək: Həzrət Süleyman Allahın yardımı ilə cinləri inşaat kimi ağır işlərdə işlədirdi. Bir gün əsasına söykənib işin gedişatını seyr edərkən vəfat edir. Lakin cinlər vəfat etdiyini anlamadıqları üçün işlərinə davam edirlər. Bir neçə gün ərzində bir qurd Hz. Süleymanın əsasını yedikdən sonra yıxılana qədər onun ölümündən xəbər tutmurlar. Əgər cinlər qeybi bilsəydilər, şübhəsiz ki, Həzrət Süleymanın öldüyünü də bilər və onun qorxusundan ağır işlərdə çalışmağa davam etməzdilər.

İndi isə digər aktual məsələyə, cadunun insana zərərinə toxunaq. Cadu və sehr müəyyən vasitələrlə insan bədənində və psixologiyasında müxtəlif təsirlərə səbəb olur. Bu, bir gerçəkdir və Qurani-Kərimdə bunu təsdiqləyən ayə var: **"(Yəhudilər) Süleymanın səltənətinə dair şeytanların oxuduqlarına (sehr kitablara) uydular. Süleyman (bu kitablara uymadığı üçün) kafir olmadı, lakin şeytanlar (bildikləri) sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki (o iki mələk): "Biz (Allah tərəfindən göndərilmiş) imtahanıq (sınağıq), sən gəl kafir olma!" – deməmiş heç kəsə sehr öyrətmirdilər. (Bununla belə) yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər…"** (əl-Bəqərə, 102) Ayədə bildirildiyi kimi sehr və cadu ilə ər-arvad arasına nifaq salmaq, insanlara müxtəlif zərərlər vermək mümkündür. Hətta Həzrət Peyğəmbərə də cadu edilmiş və o, sehrin təsirindən xəstələnmişdi. Fələq nə Nəs surələrinin nazil olması da bu səbəbə bağlıdır.

Zərər verən şeytan, falçı, cadugər varsa, bütün zərərləri insandan dəf edəcək Yaradan hər şeydən üstündür. Əsas məsələ insanın Allaha bağlılığı, Ona möhkəm imanı və təvəkkülüdür. Bir insan Rəbbinə layiqincə təvəkkül edərsə, insanların və cinlərin gözlə görünən və görünməyən şərindən sağlam qalaya sığınmış olar. Həzrət Peyğəmbərin oxuduğu və ümmətinə tövsiyə etdiyi dualar, Quran ayələri də cadunun, sehrin insana təsir gücünü yox edən səbəblərdəndir.

Burada qeyd etdiklərimizi və bu kimi məlumatları oxuyub əsla tələşə düşməmək və narahat olmamaq lazımdır. Zərər verən şeytan, falçı, cadugər varsa, bütün zərərləri insandan dəf edəcək Yaradan hər şeydən üstündür. Əsas məsələ insanın Allaha bağlılığı, Ona möhkəm imanı və təvəkkülüdür. Bir insan Rəbbinə layiqincə təvəkkül edərsə, insanların və cinlərin gözlə görünən və görünməyən şərindən sağlam qalaya sığınmış olar. Həzrət Peyğəmbərin oxuduğu və ümmətinə tövsiyə etdiyi dualar, Quran ayələri də cadunun, sehrin insana təsir gücünü yox edən səbəblərdəndir. Qurani-Kərimdə deyilir: **"… Lakin onlar (sehrbazlar) Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər…"** (əl-Bəqərə, 102)

Müşfiq XƏLİLOV

FALA BAXMAQ VƏ BAXDIRMAQ

Uca Allah insanlara nəyi qadağan edibsə, onların nəticə etibarilə insana ziyanı var. Nəyi halal edibsə, onun da insanlar üçün faydası var. Misal üçün, əgər içki içmək bir müsəlmana haram buyurulubsa, demək ki, bunun insan sağlamlığına və ümumilikdə cəmiyyətə zərəri var.

Budəfəki mövzumuz olan "fala" gəldikdə isə İslam fala baxmağı da, baxdırmağı da qəti şəkildə qadağan edib və bu əməllə məşğul olmağı küfr saymışdır. İslam bu əməli küfr olaraq qəbul edirsə, demək ki, falın həm fərd, həm də cəmiyyət üçün bir çox zərərləri var. Bunun üçün özünü müsəlman sayan hər kəs fala baxmağı da, baxdırmağı da eyni günah olaraq görməli və bu çirkin oyunun qurbanı olmamalıdır.

Çox təəssüflə qeyd etmək istərdim ki, müsəlman cəmiyyətində, dinimizə zidd olan bu əməllərin qarşısını almaq qeyrimümkündür, hətta biz onların bir çox yerdə reklamlarına da rast gəlirik. Televiziya kanallarımızdan qəzet səhifələrimizədək bütün mətbuatımızda bunun şahidi oluruq. Müsəlman xalqımız isə dini tədris və təbliğin zəifliyi nəticəsində özləri də bilmədən bu günahlara şərik olur.

Falçılıq elmi ta qədimdən məşğul olunan batil elmlərdəndir. Bu elmin müxtəlif növləri var: oxlarla, ulduzlarla, quşlarla və s. Ən məşhur fal növlərindən biri də ulduzlarla baxılan kəhanət elmidir. Kahinlik və sehrbazlıq sayılan ulduz elmi qeybdən və gələcək haqqında xəbərlər verməkdir. Peyğəmbər (s.ə.s) belə buyurur: "*Rəbbiniz nə buyurduğunu bilirsinizmi?*" Səhabələr: "*Allah və Rəsulu daha yaxşı bilir*" - dedilər.

Allah-Təala buyurdu: "*Qullarımdan bir qismi Mənə iman gətirərək, bir qismi də kafir olaraq səhərə çıxdı. "Allah fəzli və rəhməti ilə bizə yağış yağdırdı"-deyən mənə iman gətirmiş, ulduzları da inkar etmiş olaraq səhərə çıxdı. Kim də "filan və filan ulduz sayəsində bizə yağış yağdırıldı" dedisə, o da məni inkar etmiş, ulduza isə iman gətirmişdir*" (Buxari, Azan, 156, İstisqa, 38).

Bütün bu qeyd edilənlərdən məlum olur ki, fala baxmaq da, baxdırmaq da haramdır. Ona iman gətirən də küfrə bulaşmış olur. Qədim zamanlardakı fallıqla bugünkü falçılıq arasında şəkil baxımından fərqlər olsa da, mahiyyət baxımından çox bənzərlikləri var.

Bəzən falçıların dedikləri doğru ola bilər. Amma bu onların haqlı olduğu mənasına gəlməz. Falçının yanına gedən insanlar, əsasən, öz əməllərinə haqq qazandırmaq üçün belə bir sual verirlər: "Bəs, necə olur ki, falçı bəzən bir çox şeyi olduğu kimi deyir, bəs, o, bunları haradan bilir?"

Quran ayəsindən məlum olduğu kimi, fal şeytan əməlidir. Şeytan bəzi qeybi məsələlərdən xəbərdar olur və "falla" məşğul olanlara bəzi məlumatları pıçıldayır və falçı da bunları fala baxdırmağa gələn insana söyləyir.

Cinlər arasında da Allaha ibadət edəndər olduğu kimi və şeytana tabe olanlar da var. Cinlər fiziki cəhətdən insandan güclüdürlər. Misal üçün hədislərdə bir cində qırx kişi gücü olduğu və cinlərin göyün birinci qatına kimi qalxa bildiklərinə dair məlumatlar var. Həmçinin göydə mələklərin müxtəlif mövzularda, insanların taleyi və işləri haqda söhbətləri olur. Deməli, cin göyə qalxıb mələklərin söhbətlərinə oğrun-oğrun qulaq asmaq istəyəndə, bir-iki şey eşidir, çox qala bilmir, ulduzlar onu yandırır, o da enir yerə və eşitdiyi cüzi məlumatı falçıya pıçıldayır. Falçı da bunları qarşısındakı insana deyir. Bədbəxt "falçı" da zənn edir ki, bu ona Allah tərəfindən verilən "vergi"dir.

Fala baxan şəxs sanki qeybi (gələcəkdə olacaqları) bildiyini iddia edir. Halbuki, qeybi Allahdan başqa heç kəs bilməz. Kim də qeybi bildiyini iddia edərsə, Allahın Qurani-Kərimdə nazil etdiyi bu ayəni inkar etmiş olar.

Uca Allah buyurur: **"Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!"** (Ənam, 59).

Hətta Peyğəmbərimiz (s.ə.s) də Uca Allahın ona xəbər verdiyi bəzi qeyblərdən başqa heç bir qeybi bilmirdi. Əgər Peyğəmbərimiz (s.ə.s) qeybi bilsəydi, özü üçün daha çox xeyir tədarük edərdi. Uca Allah buyurur: **"(Ey Peyğəmbər! Onlara belə) de: "Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, (özüm üçün) daha çox xeyir tədarük edərdim (savab qazanmaq üçün dünyada daha çox yaxşı işlər görərdim) və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı (pis əməlləri müqabilində Allahın əzabı ilə) ancaq qorxudan və (yaxşı əməlləri müqabilində isə Cənnətlə) müjdələyənəm!"** (əl-Əraf, 188).

Elə ona görə də Peyğəmbər (s.ə.s) kahinlərin və fala baxanların yanına gedən insanlar barəsində belə demişdir: *"Kim kahinin (fala baxanın) yanına gedərsə və gedib onun dediklərini təsdiq edərsə, artıq Məhəmmədə nazil edilmiş Qurana küfr etmiş (onu inkar etmiş) olur"* (Tirmizi, Taharə 102). Çünki fala baxanın yanına gedən şəxs, sanki iddia edir ki, qeybi Allahdan başqa fala baxan da bilir. Bu da Allahın ayəsini inkar etmək deməkdir.

Falçılar nəinki kiminsə bir problemini həll edir, tam əksinə insanların arasına düşmənçilik salır. Məsələn, falçıların dediyi əsas sözlərdən biri də budur: "Filankəs sənə cadu edib, etdirir və ya etdirəcək". Sonra da həmin adamın bəzi əlamətlərini sayır. Sayır deyəndə ki, özünə görə bəzi şeylər uydurur, evinizə gəlibgedir, boyu belədir, saçının rəngi belədir və s. Falçıya inanan da həmin əlamətlərdən öz düşmənini "müəyyən edir": ya baldızıdır, ya qayınatası, ya xalası qızıdır, ya qonşusudur, ya da başqa birisidir. Düşmənçilik üçün hər şey var, artıq müharibəyə başlamaq olar. Falçının nəyinə lazımdır ki, onlar bir-biriləri ilə əlbəyaxa oldular, yoxsa bir-birilərini öldürdülər, onsuzda cinayət məcəlləsində falçılıqla bağlı bir Maddə nəzərdə tutulmayıb.

Yazımı bir ayə ilə yekunlaşdırıram: **"Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!"** (Maidə 90).

Nurəddin RÜSTƏMOV
nureddin.rustemov@box.az

ŞEYTAN XİSLƏTİ

Bu gün cəmiyyətimizdə müəyyən mənada dindən istifadə edən elə insanlar var ki, gəlir məqsədi ilə özlərini xalqa "münəccim", "cadugər" və falçı kimi göstərirlər. Hər sözünün əvvəli və sonu "bismilləh"lə başlayan bu insanlar Allahdan vergi almaları ilə iddialıdırlar. Var gücləri ilə çalışırlar ki, insanları nəyəsə inandırsınlar. Maraqlısı da odur ki, birbaşa insan taleyindən xəbər verirlər, bəxt bağlayırlar, bəxt açırlar. Amma bunu necə edirlər, bax bu çox maraqlıdır.

Günlərin bir günü dostum mənə taleyindən şikayət etdi. Dediklərinə görə qonşusunda yaşayan falçı bir qadın onu "tilsimləyib». Mən ondan soruşanda ki, bəs necə oldu qonşunun sənə tilsim etdiyini bildin. O da cavabında söylədi ki, o, başqa bir falçının yanına getmişdi, bunların hamısını mənə o söylədi. Hətta məndən müəyyən miqdarda pul da istədi ki, həmin tilsimi açsın. "Tilsim" normal insana inandırıcı gəlməsə də, çox heyf ki, artıq dostum falçının sözlərinə inanmışdı. Sonradan eşitdim ki, dəyərli bir məbləğ qarşılığında dostumun "tilsimini» falçı açıb. Dostumun başına gələn bu tilsim məsələsi mənə çox maraqlı gəldi. Günlərin bir günü dedim ki, gedim dotuma baş çəkim. Mən isə yol boyu fikirləşirdim ki, onun taleyində yəqin heç bir problem yoxdur.

Sən demə öz düşüncəmdə yanılmışam.. Yenə də o, həmişəki kimi narazı idi bəxtindən, taleyindən yox, ümumilikdə həyatından. O danışdı, mən isə ona qulaq asdım və heç nə demədim, çünki əvvəlcədən ona falçılar haqqında danışmışdım.

Günümüzdə onlara müraciət edən kifayət qədər insan var ki, falçıların müştəriləridir. Falçılar da onlara müraciət

edən insanların taleyi ilə istədiyi şəkildə oynayırlar. Keçək bu məsələnin əsas tərəfinə. Bəs, görəsən, özlərinə vergi verilməkdə iddialı olan bu falçılara İslam dini necə baxır və onları hansı kateqoriyaya daxil edir?

Bu mövzunu araşdırmaq üçün əvvəlcə üz tutacağımız ünvan İslamın müqəddəs kitabı olan Qurani-Kərim olacaq. Qurani-Kərimdə bu haqda belə buyurulur:

"Ey iman gətirənlər! İçki də, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?" (əl-Maidə ۹۱-۹۰)

Digər bir ayədə isə: «**De: «Pənah aparıram… (əfsun oxuyub) düyünlərə üfürən qadınların şərindən»** (əl-Fələq, 4)-deyə buyurulur.

Sözsüz ki, Allahın sevmədiyi əməllərdən sayılan falçılıq insanı xoşbəxtlikdən uzaqlaşdırır, insanı ümidsizliyə düçar edir. Yuxarıda qeyd etdiyimiz Quran ayəsi aydın şəkildə bizlərə çirkin əməllərdən çəkinməyi əmr edir. Hətta falçılığın şeytan əməlindən bir əlamət olduğunu bildirir. Sadəcə insanın öz ağlı ilə bunu dərk etmək üçün haram işlərlə məşğul olan insanların həyatına nəzər salması kifayətdir. Çünki, tarix boyu haram əməllərin xoşbəxtliklə qurtaran sonu olmamışdır.

Hər nə qədər falçılıq cazibədar görünsə də, bu işlə məşğul olan insaların istər düz, istərsə səhv məlumatlarla insanların keçmişindən xəbər verməsi və gələcəyə aid bir sıra iddialar irəli sürməsi heç də həmin insanın müqəddəs insan olmasından xəbər vermir. Bir sözlə, bu cür "istedad"a malik olan insanın Allahın lənətlədiyi və haram buyurduğu əməldən çəkinərək tövbə etməsi lazımdır. Çünki şeytana məxsus xüsusiyyətlərdən birinin

Hər nə qədər falçılıq cazibədar görünsə də, bu işlə məşğul olan insaların istər düz, istərsə səhv məlumatlarla insanların keçmişindən xəbər verməsi və gələcəyə aid bir sıra iddialar irəli sürməsi heç də həmin insanın müqəddəs insan olmasından xəbər vermir.

insanda olması heç də yaxşı əlamətlərdən sayılmır. Bəlkə də, gündə milyonlarla insan şeytana lənət oxuyur və bu oxunan lənətlərdən də şeytan xislətli insanlara pay düşür. Çalışmaq lazımdır ki, şeytan xislətli insanlardan uzaq olaq, Allahın lənət və qəzəbi bizi xoşbəxtlikdən ayırmasın.

Allah Rəsulu bu haqda hədislərində belə buyurur:

«Hər kim kahinə müraciət etsə və onun sözlərinə inansa, Mühəmmədə nazil olan vəhyi inkar etmiş olar» («Sünənü Əbu Davud», «Tibb» kitabı, 3904-cü hədis**).** Digər bir hədisdə isə *«Kim kahinin yanına gedib ondan nə isə soruşsa, 40 gecəlik namazları qəbul olmaz»* («Səhihül-Müslim», «Salam» kitabı, 5821-ci hədis).

Yuxarıdakı hədislərdən göründüyü kimi, Həzrət Mühəmməd Peyğəmbərin (s.ə.s) falçılara münasibəti çox sərt olmuşdur. Bəşəriyyətin ən gözəl və yaradılışın ən mükəmməl insanı olan Hz. Muhəmmədin (s.ə.s) falçılara bu cür münasibət göstərməsi o deməkdir ki, ikinci bir insan heç vaxt özünü ondan üstün saya bilməz. Hər nə qədər "sehr", "cadu", falçılıqla qeyri-adilik göstərsə də, Allahın lənət və nifrətini qazanar. Ona görə də müsəlmana nə keçmişi, nə gələcəyi maraqlı gəlmir, müsəlmana əsas olan onun axirətidir ki, cənnət deyilən bağçada sevdikləri ilə bərabər olsun. İnsan çalışmalıdır ki, öz xeyirxah əməlləri ilə xislətini mələk xislətinə çevirsin.

İlahiyyat üzrə fəlsəfə doktoru,
"Elm Yurdu" Sosial Araşdırmalar İctimai Birliyinin təsisçi sədri

Elşad MAHMUDOV: "İNSANLARIN FALA MEYİL ETMƏSİ QƏDƏRİ DOĞRU ANLAMAMAQDAN İRƏLİ GƏLİR!"

İrfan: *İslam dininin fal və cadugərlik kimi fəaliyyətlərə baxışı necədir? Zəhmət olmasa, bu haqda oxuculara qısa məlumat verin.*

E. Mahmudov: İnsan yaradılış etibarilə aciz qaldığı məsələləri öyrənmək üçün hər zaman müxtəlif üsullara müraciət etmişdir. Gələcək taleyi, bəxti, baş verə biləcək hadisələri, onun qiyabında gedən prosseslər, gördüyü işlərin onun üçün nə qədər faydalı, yaxud zərərli olacağı kimi məsələlər hər zaman insanın gündəmində və maraq dairəsində olmuşdur. Bütün bu deyilənlərə cavab tapmaq istəyən və bu ehtiyacını qarşılamaq üçün müxtəlif dövrlərdə çeşidli vasitələrə əl atan insan ona və digərlərinə faydalı olacaq və ya zərər verəcək metodlardan istifadə etmişdir. Bu zərərli və insan həyatında fitnə-fəsad törədəcək metod və fəaliyyətlər arasında fal və ya falçılıqla bərabər cadugərliyi xüsusi olaraq qeyd etmək lazımdır. Falçılıq və cadugərliyin tarixi cəhalət və cahilliyin tarixi qədər qədimdir. Təəssüflə qeyd etmək lazımdır ki, hər dövrdə bu və bənzəri fəaliyyətlə məşğul olan, gələcəyin, şansın və ya qismətin bilinməsi məqsədilə qara magiya adı altında müxtəlif varlıqlarla əlaqəyə girdiyini iddia edərək insanlar üzərində təsir mexanizması yaratmaq istəyən qüvvələr mövcud olmuşdur. Sehrbazlıq yolu ilə, ovucun içinə baxaraq, müxtəlif muncuqlardan istifadə edərək, zər

ataraq, ox ataraq, quş uçurdaraq, kartlarla oynayaraq, ulduzlara işarət edərək, qəhvə çöküntüsü və ya fincanı ilə və ya təsadüfən açılan bir kitabın sətrinə əsaslanaraq məna çıxarmaq kimi işlərlə məşğul olan falçılar və cadugərlər min illər boyu insanları aldatmağa, öz fırırldaqlarını yaymağa, cəmiyyətdə fəsad törətməyə davam etmişlər.

İslam dini fal və cadugərlik kimi fəsadları ortadan qaldırmağa istiqamətlənmiş bir çox tədbirlər almışdır. İnsanlığa hidayət rəhbəri olaraq nazil edilən Qurani-Kərimin "əl-Maidə" surəsinin 90-cı ayəsində Allah-Təala ***"Ey iman gətirənlər! Şərab da, qumar da, bütlər də, fal oxları***

da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!"- buyuraraq fal və falçılığı murdar olan bir şeytan əməli kimi təqdim etmişdir. Yenə eyni surənin 3-cü ayəsində bir sıra haram, qadağa və günahlar arasında "***fal oxları ilə pay bölməyi***" də qeyd edən Allah-Təala beləliklə, müsəlmanların bu haramdan və fasiqlikdən birmənalı şəkildə uzaq durmağa çağırmışdır. Bir başqa tərəfdən İslam dininin qətiyyətlə qadağan buyurduğu falçılıq bir növ qeybdən xəbər vermək mənasına gəlir. Halbuki Qurani-Kərimdə mütləq mənada qeybin yalnız Allahın elmi daxilində olduğu bildirilir və ondan başqa qeybi kimsənin bilmədiyi üzərində dəfələrlə durulur. Hətta peyğəmbərlər və mələklər kimi mübarək varlıqların belə Allah-Təala bildirmədikcə qeybdən xəbər verəməyəcəkləri ayələrdə açıq şəkildə ifadə edilir. Bu ayələrdən belə nəticə çıxarmaq olar ki, yalnız Allahın bildiyi qeybdən xəbər verdiyini iddia edən falçılar və onların qeybdən xəbər verən metodları İslama görə fırıldaq, yalan, batil və haram bir əməldir. Bunların təsdiqini biz İslam Peyğəmbəri Hz. Muhəmmədin (s.ə.s) hədislərindən də öyrənirik. İslamaqədərki Cahiliyyə dövründən qalan bir adət olaraq insanların tez-tez müraciət etdikləri və özlərini "ərraf" və ya "kahin" kimi qələmə verən falçıları və bu falçılara gedib fal açdıran, onlara inanan və ya onları dəstəkləyən insanları Peyğəmbərimiz ağır bir dillə qınamış və edilən bu əməli küfr dərəcəsində dəyərləndirərək bunu edənləri kafir və inkarçı adlandırmışdır. *"Kim bir kahinə gedər və onun dediklərini təsdiqləyərsə, şübhəsiz ki, Muhəmmədə nazil olanı inkar etmiş olar"* (Əbu Davud, Tibb, 3904) hədisi bu işləri görənlərin Qurani-Kərimi və ya bütünlüklə İslam dinini inkar etmiş olduqlarını açıq şəkildə ortaya qoyur. *"Hər kim bir ərrafa (falçıya) gedib ondan hər hansı bir şey soruşarsa, bu şəxsin qırx gecəlik namazı qəbul olunmaz"*- (Müslim, Salam, 125) hədisi isə bu işin haramlılığının və çirkinliyinin ortaya qoyulması baxımından çox şeyi ifadə edir.

Allaha iman gətirən və İslama təslim olan insan hər cür şərdən, vəsvəsədən və mərdimazarlıqdan Allaha sığınmalı, ona pənah aparmalıdır. Mömin qəti şəkildə bilməlidir ki, falçılıq, sehr, cadugərlik və bənzəri fəaliyyətlərlə məşğul olan insanlar yalnız yalan söyləyib insanları yalanlarına qurban edirlər, onların psixologiyasını pozur və özlərinin mənfəətini düşünərək bundan gəlir əldə edirlər.

İrfan: *Falın və cadugərliyin haram olduğunu söylədiniz. Lakin, eyni zamanda, bu işlə məşğul olan insanların olduğunu da qeyd etdiniz. Elə isə, iman sahibləri belə insanların şərindən əmin olmaq üçün nə etməlidirlər?*

E. Mahmudov: İlk olaraq hər bir iman sahibi öz inancını daha da gücləndirməli, bu dünyanın bir imtahan dünyası olduğunu bilməli, başa gələn hər kiçik hadisənin belə Allah-Təalanın elmi və qüdrəti daxilində olduğuna qətiyyətlə inanmalıdır. İman gətirən şəxs anlamalıdır ki, Uca Yaradıcı sonsuz güc və qüdrət sahibi, rəhman və rəhim olan Allahın izni olmadıqca ona heç bir kəs zərər verə bilməz. Allaha iman gətirən və İslama təslim olan insan hər cür şərdən, vəsvəsədən və mərdimazarlıqdan Allaha sığınmalı, ona pənah aparmalıdır. Mömin qəti şəkildə bilməlidir ki, falçılıq,

Bu gün insanların həyatlarındakı ən böyük problemlərdən biri onların daxilindəki dini və mənəvi boşluğun olmasıdır. Elə fala meylliliyin başlıca səbəblərindən də biri budur. Təəssüf ki, günümüzdəki insanlarda zəif iradənin mövcudluğu və mübariz ruhlu ola bilməmək kimi amillər onları falçı qapısına qədər aparır.

sehr, cadugərlik və bənzəri fəaliyyətlərlə məşğul olan insanlar yalnız yalan söyləyib insanları yalanlarına qurban edirlər, onların psixologiyasını pozur və özlərinin mənfəətini düşünərək bundan gəlir əldə edirlər.

Nəticə olaraq bunu demək lazımdır ki, bir insan ağlını və əməlini bir işlə nə qədər məşğul edərsə, bir o qədər də o iş, o düşüncə onu öz əfsununa salar, öz tabeçiliyinə alar. Bu məqsədlə də iman sahibi özünü, sağlığını, psixologiyasını qoruması üçün Allah-Təalanın halal və haramlarına, əmr və tövsiyələrinə, onun ayələrinə diqqət etməlidir. Bu mənada Qurani-Kərimdəki "Fələq" və "Nas" surələri heç bir şərhə ehtiyac duymadan açıq bir şəkildə ən gözəl yolu möminlərə göstərir.

Möminlər Allah-Təalanın bu ayələrini daim yadda saxlamalı, onları müntəzəm zikr halına gətirməli və mümkün olduqca dəstəmazlı olmalı, vacib ibadətləri tərk etməməli, günahlardan və haramlardan uzaq olmaqla İslamın gözəl bildiyi, halal buyurduğu fəaliyyətlərlə məsğul olmalı, sevmədiyi, razı qalmadığı əməllərdən çəkinməklə şərdən, vəsvəsədən və günahlardan qorunmalıdır. Cəmiyyəti kökündən sarsıdaraq ailələrə nifaq salan, insanlararası münasibətləri pozan, dostları bir-birinə düşmən edən bu kimi fəaliyyətlərə meyl edib fala baxdırmaq, cadu etdirərək, xeyrə və şərə heç bir şəkildə mudaxilə edə bilməyən insanların yalanına və fırıldağına inanmaq İslamın qadağa və haram buyurduğu əməllər arasında yer alır.

Təəssüf ki, cəmiyyətimiz də bu kimi yanlış fəaliyyətlərdən kənarda qalmamışdır. Kartlar, qara magiya (sehr), qəhvə, hətta Qurani-Kərimlə bəxtin açılması və s. kimi fal üsulları ilə iradələrini, ağıllarını cəfəngiyyata tabe etdirən insanlar həm özləri günahkar sayılır, həm də bu işlərlə məşğul olanlara haram yolla "ruzi" qazandırmış olurlar.

İrfan: *Sizcə, bu gün cəmiyyətimizdə insanlarda fala meyllilik səbəbləri nədir? Bu, insanların qədər anlayışını doğru dəyərləndirməmələri ola bilərmi?*

E. Mahmudov: Bu gün insanların həyatlarındakı ən böyük problemlərdən biri onların daxilindəki dini və mənəvi boşluğun olmasıdır. Elə fala meylliliyin başlıca səbəblərindən də biri budur. Təəssüf ki, günümüzdəki insanlarda zəif iradənin mövcudluğu və mübariz ruhlu ola bilməmək kimi amillər onları falçı qapısına qədər aparır. Sosial müşahidələr onu göstərir ki, falçı və cadugər yanına insanlar aşağıdakı səbəblərə görə gedirlər: ailədə ər-arvad arasındakı münaqişə, kişinin qadına xəyanət etməsi, evlənən cütlüklərin gələcək taleyinin necəliyi, bəxtin bağlanması və ya açılması, insanın gələcək işlərinin necə olması, yuxu yozumu, insanın başına gələcək hadisələr qarşısında acizliyinin ortadan qaldırılması, fal, cadu və sehr ilə birilərinin işinə mane olmaq, bir insana pislik etmək hə-

risliyi, bizneslərinin gələcəyi, hətta günümüzdəki falçıların insanları müalicə edib şəfa vermə istəkləri. Bu və bənzəri səbəblərdən dolayı xalq hələ də, falçılara müraciət edib onlardan kömək umur.

Digər səbəblərdən biri də insanların qədər anlayışını doğru dəyərləndirməmələridir. Qədər Allahın keçmiş və gələcək hadisələri "tək bir an" olaraq bilməsidir. Başqa cür ifadə etmiş olsaq, qədər- hər bir şeyin yaradıcısı olan Allah-Təalanın keçmiş, indiki və gələcək hadisələri əzəli və əbədi elmi daxilində eyni anda görə bilməsidir. İnsanın qədəri isə "löhvi-məhfuz" deyilən ilahi dəftərdə yazılmışdır. Yəni insan əsla heç bir vasitə ilə, eləcə də fal ilə qədərinə müdaxilə edə bilməz. Yalnız dua ilə işlərimizi Allaha həvalə edərək ona təvəkkül etmək, yalnız ondan kömək istəmək, yaradıcının qoyduğu qayda-qanunlar çərçivəsində hadisələri doğru dəyərləndirmək, güclü iradə, qüvvətli məntiq, sağlam ağıl, mübariz ruh və sarsılmaz inama sahib olmaq lazımdır.

İrfan: *İnsanlar bu kimi əməllərdən çəkindirmək üçün ölkəmizdə kifayət qədər maarifləndirmə işləri görülürmü sizcə? Bu istiqamətdə nə kimi addımlar atılmalıdır, üzərimizə düşən vəzifələr nələrdir?*

E. Mahmudov: Əvvəla, qeyd etmək istərdim ki, ölkəmizdə doğru, sağlam dini və mənəvi dəyərlərin təbliğ edilməsi işi hələ də öz əhəmiyyətini qoruyur. Falçılıq, cadugərlik və sehrbazlıq kimi cəmiyyəti sarsıdan hadisələrin arxa planında, əlbəttə ki, bu və bənzəri məsələlər haqqında sağlam məlumatın cəmiyyətə çatdırıla bilinməməsi, bu istiqamətdə doğru maarifləndirmə işinin yetəri qədər aparılmaması ilə də əlaqədardır. Təəssüfverici hallardan biridir ki, insanları bu yanlış vərdişlərdən çəkindirmək əvəzinə ölkəmizdə falçılığın təbliğinə geniş şərait yaradılmışdır. Əlbəttə, dünyəvi əsaslara dayanan idarəçilik anlayışı, din, etiqad və vicdan azadlığının təmin edilməsini bu yalnış yöndə istifadə edən şəxslər də hər zaman mövcuddur və öz mövcudluqlarına davam edəcəklər. Bunu onlar üçün kütləvi informasiya vasitələrində təşkil olunmuş şou xarakterli proqramlar da göstərir. Özlərini falçı, medium, ekstrasens adlandıran insanların ilahiyyatçılarla eyni verilişə dəvət edilib, şou və reytinq xətrinə verlişlərdə mübahisələrin yaradılması, zənnimizcə, heç də doğru deyil. Ola bilər ki, həmin verilişlərdə onların fırıldaqçı olduğunu sübut etməyə çalışırlar. Lakin bu günə qədər olan proqramlarda bu həll olunmaz olaraq qalmış və həmin proqramlar dəvət olunan falçıları sadəcə reklam etməklə qalmamış, onların daha da məşhurlaşmasına səbəb olmuşdur. Hər gün ekranlardan evlərimizə yansıyan və heç bir mənası olmayan ulduz falları isə təəssüflər olsun ki, həyatımızın artıq bir parçasına çevrilərək vətəndaşlarımızı yanıltmaqda öz fəaliyyətlərinə davam edir. Qeyd etmək istərdik ki, fal və falçılıq, cadu və cadugərlik, sehr və sehrbazlıq kimi cəfəngiyat dolu məsələlər haqqında maarifləndirmə işi və bu mövzuda olan bilgilər insanlara kiçik yaşlarından aşılanmalı, daha sonra hər kateqoriyadan insana təbliğ edilməlidir.

İrfan: *Dəyərli vaxtınızı bizə ayırdığınız üçün təşəkkür edirik.*

E. Mahmudov: Biz də öz növbəsində bizləri "İrfan" jurnalının dəyərli oxucuları ilə görüşdürdüyünüzə görə sizlərə dərin minnətdarlığımızı bildirir, xalqımızın milli-mənəvi sərvətlərinin qorunaraq təbliğ edilməsi işində jurnalınızın bütün əməkdaşlarına müvəffəqiyyətlər arzulayırıq.

Rüfət ŞİRİNOV
rufet_80@hotmail.com

HƏZRƏT PEYĞƏMBƏRƏ CADU EDİLDİMİ?

Həyatın hər dövründə olduğu kimi, günümüzdə də aktuallığını qoruyan sehr, cadu, falçılıq kimi xüsusların bəşər tarixi qədər qədim olduğunu ifadə etsək yanılmarıq. Bu xüsusların hər biri geniş əhatəli mövzulardır. İllər boyu bu barədə əsərlər qələmə alınmış, fikirlər səsləndirilmişdir. Əlbəttə ki, bu mövzular geniş və maraqlı olduğu qədər mübahisəlidir. Bəzi insanları bu xüsusların varlığının və təsirinin mümkünlüyünü ifadə edərkən, bəziləri də belə fikirlərin cəfəngiyatdan ibarət olduğunu söyləmişdir. Biz bu yazımızda bu mübahisələrə və məlumatlara yer vermək yerinə İslam dininin, daha doğrusu, Hz. Peyğəmbərin (s.ə.s) səbəb-cadu, sehir, fal kimi xüsusların qarşısındakı durumu barəsində yazmaq istədik.

Dinin bu xüsuslara baxışı önəm kəsb edir. Çünki Hz. Musanın (ə.s) sehrbazlar qarşısında göstərmiş olduğu "sehr" təkbaşına ələ alınacaq mövzudur. Hz. Peyğəmbərin (s.ə.s) müşrik ərəblər tərəfindən sehrbazlara bənzədilməsi də əslində o dövrdə sehrbazların və sehrin gündəmi ciddi mənada zəbt etdiyini söyləməyə, həmçinin insanlar tərəfindən çox da sevilməyən və bəyənilməyən bir özəllik olduğunu söyləməyə əsas verir. Dini mənada sehrin mövcudluğu Qurani-Kərimdə qeyd edilməkdədir. Odur ki, sehrin mövcudluğunun inkar edilməsi bu ayələrə ziddir. Yəni Hz. Musanın (ə.s) sehrbazlara qarşı sehrdən istifadə etməsi bunun varlığını isbat edir. Ancaq unutmamaq lazımdır ki, Qurani-Kərimdə varlığının ifadə edilməsi bizə sehrlə məşğul olmağa əsas vermir.

Mövzuya keçmədən onu da ifadə etmək istəyirik ki, fal və falçılıq ilə sehr-cadu və sehrbazlıq bir-birindən tamamilə

Hz. Peyğəmbər (s.ə.s) özünə edilən cadudan şəxsi olaraq təsrilənmiş və xəstələnincə də «Fələq»-»Nas» surələrinin nazil olmasına səbəb təşkil etmişdir. Ayrıca, bu sehrin bildirilməsi ilə onun bir möcüzəsi də gerçəkləşmişdir. Allahın bildirməsi ilə serhin yerini və onu edəni bilmişdir.

fərqli şeylərdir. Falçılıq etmək və falçının yanına getmək onun dediklərini nəinki, qəbul etmək, hətta "görəsən ola bilərmi?" deyərək şübhələnmək belə dini nöqteyinəzərdən ciddi şəkildə qadağan edilmiş və bu barədə ciddi xəbərdarlıqlar edilmişdir. Falçılıq xüsusi qabiliyyətə əsaslanır və bu qabiliyyət vasitəsilə insanların xoş niyyətlərindən sui-istifadə edilir.

Səbəb-cadu bəzi təbiət üstü varlıqlarla ünsiyyət quraraq və yaxud da gizli gücünün olduğu qəbul edilən bəzi təbii vasitələrdən istifadə edərək zərərli, faydalı və ya mühafizə etmə məqsədli nəticələr əldə etmək üçün görülən işlərə deyilir. Bu əməllərin əsas məqsədi, əlbəttə ki, maddi mənfəət əldə etməkdir. Burada hər hansı xeyriyyəçilikdən və Allah rizasından söz açmaq sadəlövhlükdür.

Sehr kəlməsi cadu ilə eyni mənaya gəlsə də, əslində bir-birindən fərqli şeylərdir. Sehrbazlıq əslində günümüzdə daha çox şou xarakterli bir məslək halına çevrilmiş, hətta demək olar ki, insanların əksəriyyətinin sevərək seyr etdiyi bir şoudur. Sehrbazlıqda gözü, görüşü aldadan hoqqabazlıq və illüziya, hipnoz, telepatiya kimi vasitələrdən istifadə edilir. Cadugər isə xeyir və şər qüvvələrin yardımını təmin edən, tilsim və cadu terminlərindən səbəb və digər materiallardan istifadə edən kəslərdir.

Bu qədər əsas məlumatlar verdikdən sonra günümüzdə mübahisə mövzularından biri olan Hz. Peyğəmbərə (s.ə.s) cadunun edilib-edilməməsi məsələsinə toxunmaq istəyirik. Bu mövzu barəsindəki mübahisələrə yer vermədəncadunun necə edildiyi və Hz. Peyğəmbərin (s.ə.s) bu vəziyyətdən necə xilas olduğu barəsində məlumatları paylaşmağın daha doğru olduğunu düşünürük.

Hz. Peyğəmbərə (s.ə.s) sehr, cadu bir yəhudi tərəfindən edilmişdir. Peyğəmbərimiz (s.ə.s) bu cadu vasitəsilə səhhətində narahatlıq hiss etmiş və bir mələyin göstərməsi ilə o cadunu gizlədildiyi yerdən çıxarmışdır. Daha sonra «Fələq»-«Nas» surələrini oxuyaraq bu cadunun sehrindən qurtulmuşdur (Buxari, Müslim, İbn Macə).

Mənbələrimizdə bu hadisə belə qeyd edilir: Hüdeybiyyə sülh sazişindən sonra Rəsulullah (s.ə.s) Mədinəyə döndü. Hicrətin 7-ci ilində Xeybər yəhudilərinə Mədinədən bir heyət getdi. Orada məşhur sehrbaz, cadugər Lübeyd ibn Asim ilə

görüşdülər. Heyət Lübeydə belə müraciət etdi: "Bilirsən, *Məhəmməd bizə nə edib? Bir neçə dəfə ona cadu etmək istədik, amma alınmadı. İndi də sənin yanına gəlmişik. Çünki sən bizdən daha böyük sehrbaz və cadügərsən. Bu üç qızılı götür və Mühəmmədi güclü əfsunla*". O dövrdə Rəsulullaha (s.ə.s) bir yəhudi uşağı xidmət edirdi. Onlar bu uşaq vasitəsilə Rəsulullahın (s.ə.s) darağını və saç tellərini ələ keçirdilər. Lübeyd də bu saç və daraqdan istifadə edərək Rəsulullaha (s.ə.s) cadu etdi. Sonra bu cadunu xurmadan düzəldilmiş bir qılıfın içinə yerləşdirdilər. Lübeyd bu sehri bir quyunun içindəki daşın altında gizlətdi. Bir müddət sonra Rəsulullah (s.ə.s) səhhətində bəzi narahatlıqlar hiss etməyə başladı. Etmədiyi bəzi işləri etmiş kimi, bəzi işləri də etmədiyi halda etmiş kimi xatırlamağa başladı. Yeri gəlmişkən onu da ifadə edək ki, bu qarışıq hal onun şəxsinə aid işlərlə əlaqəlidir. Yəni heç bir mənbədə onun namazını qılmadığı halda qıldı kimi zənn etməsi, hər hansı ayəni səhv oxuması və s. qeyd edilməmişdir. Əgər belə bir şey olsaydı, bütün Ərəbistana yayılar və ona iftira etdikləri sehrin həqiqət olduğu və ondan təsirləndiyi hər tərəfdə danışılardı. Ona edilmiş cadunun peyğəmbərlik vəzifəsinə heç bir zərəri olmamışdır. Onun bir ayəni unutduğu və yaxud da yanlış oxuduğu ilə əlaqəli heç bir məlumat yoxdur. Həmçinin onun peyğəmbərlik tərəfi Uca Allah tərəfindən mühafizə edilmiş, hər hansı xəta edilərsə, dərhal müdaxilə edilmişdir. Sadəcə olaraq sehr onun şəxsi həyatına bir az təsir etmişdir. Onu da Allahın köməyi ilə aradan qaldırılmışdır. Cadu edilmə hadisəsi ilə Hz. Peyğəmbərin (s.ə.s) bəşər olması baxımından Uhud müharibəsində dişinin qırılması, Hüdeybiyyədə zəhərlənməsi kimi hadisələrlə öldürülmək istənməsi hadisələrini yan-yana qoysaq, sehrin ona təsir etdiyini və təsirləndiyini ifadə etmək yalnış olmaz. Bir bəşər kimi onun belə şeylərdən təsirlənməsi, xəstələnməsi təbii hadisədir.

Bir gün Rəsulullah (s.ə.s) Aişənin (r.a) evində ikən: "*Mən Allahdan soruşdum və sualımın cavabını aldım*"- deyə buyurdu. Hz. Aişə də: "Nəyi soruşdun və nə cavab aldın?- deyə soruşduqda: «İki mələk insan şəklində yanıma gəldi. Biri başucumda, digəri də ayaq tərəfimdə durdu. Biri o birindən belə soruşdu: "Buna nə olub?" Digəri *cavab verdi ki, buna sehr-cadu edilib. Birincisi soruşdu: "Kim ona sehr edib?». İkincisi: "Lübeyd ibn Asim"-deyə cavab verdi*». Bu dialoq cadunun daraq və saçları ilə edildiyi xurma lifləri ilə bağlanaraq quyuda gizlədildiyi şəklində davam etdi. Bundan sonra Rəsulullah (s.ə.s) bir neçə səhabəsi ilə həmin quyuya getdi, suyunu boşaldaraq daşın altında gizlədilən cadunu çıxartdılar. Daha sonra mələk Cəbrayıl (ə.s) gələrək Hz. Peyğəmbərə (s.ə.s) «Fələq» və «Nas» surələrini oxuyaraq caduya atılan düyünlərin açmasını söylədi. Peyğəmbərimiz (s.ə.s) də bu surələri oxuyunca bir-bir düyünləri açıldı və caduya batırılmış iynələr tökülməyə başladı.

Xülasə olaraq deyə bilərik ki, Hz. Peyğəmbər (s.ə.s) özünə edilən cadudan şəxsi olaraq təsrilənmiş və xəstələnincə də «Fələq»-»Nas» surələrinin nazil olmasına səbəb təşkil etmişdir. Ayrıca, bu sehrin bildirilməsi ilə onun bir möcüzəsi də gerçəkləşmişdir. Allahın bildirməsi ilə serhin yerini və onu edəni bilmişdir.

Bu kimi bir hadisə ilə üzləşən müsəlmanlar bundan xilas olmaq üçün bu surələri oxumalıdırlar. Yuxarıda qeyd edilən rəvayətlər həmin surələrin ovsundan qorunmaq məqsədilə oxunması üçün bir növ dəlil təşkil edir. Əlbəttə ki, oxunma əsnasındakı səmimiyyət, nəticə ilə düz mütənasibdir. Nöqtəni «Bəqərə» surəsinin 102-ci ayəsi ilə qoyaq: "**Lakin onlar (sehrbazlar) Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər".**

Ülvi Məmmədov

ZƏR QƏDRİNİ ZƏRGƏR BİLƏR

Keçmiş zamanda bir sənətkar uzun illər yanında yetişdirdiyi şəyirdini sınamaq qərarına gəlir. Ona iri bir brilyant verib deyir:

"Oğlum, apar bunu qarşına çıxan bir baqqala göstər, nə qədər pul verəcəklərini soruş, sonra da zərgər tap və ondan qiymət al. Amma heç kimə satma, yalnız qiymətlərini və nə dediklərini öyrən, gəl mənə xəbər ver".

Şəyird əlində brilyant bir baqqal dükanına girir və "Bunu alarsınızmı?",- deyə soruşur. Baqqal parlaq bir muncuğa bənzətdiyi ləl-cəvahiratı əlində çək-çevir etdikdən sonra bu cavabı verir:

"Buna bir dirhəm verərəm. Qoy evdə uşaq oynasın". Şəyird təşəkkür edib çölə çıxır.

Bir qəssabın yanına gedir. O da parlaq bir daşa bənzətdiyi ləl-cəvahirata ancaq beş lirə verməyə razı olur.

Bu səfər yəhər ustasının yanına gedir: "Buna nə verərsiniz?",- deyə soruşur. Usta diqqətlə baxandan sonra belə deyir:

"Bu muncuqdan mənim yəhərlərimə yaxşı bəzək olar. Buna on lirə verərəm".

Şəyird ən sonda zərgərə gedir. Zərgər ləl-cəvahiratı görüb yerindən atılır. "Bu qədər böyük brilyantı haradan tapdın?",- deyə heyrətlə qışqırır və dərhal əlavə edir: "Buna neçə lirə istəyirsən?". Şəyird soruşur: "Siz nə verirsiniz?" Zərgərin cavabı belə olur: "Nə istəsən verərəm".

Şəyird "Xeyr verə bilmərəm",- deyə daşı geri almaq üçün zərgərə xeyli yalvarmağa başlayır:

"Nə olar bunu mənə sat. Dükanımı, evimi, hətta torpaqlarımı da verərəm". Şəyird daşın əmanət olduğunu, satmağa səlahiyyətinin olmadığını, ancaq qiymət öyrənməsini istədiklərini izah edənə qədər xeyli dil tökür.

Sənətkarın yanına qayıdan şəyird həyəcanla başına gələnləri danışır.

"Bundan nə başa düşdün?",- deyə soruşur. Şəyird bu cavabı verir:

"Hər şey ancaq dəyərini bilənin yanında qiymətlidir".

ÖLÜM NƏDİR?

Tələbələrindən biri Konfutsidən:
- Ölüm nədir? deyə soruşduqda Konfutsinin cavabı belə olur:
- Həyat haqqında nə bilirsən ki, sənə ölümdən danışım.

CƏNNƏTİN YOLU

Bir xristian missioner bir şəhərə gəlir. Qarşısına çıxan azyaşlı uşaqdan şəhərdəki kilsənin yolunu soruşur. Uşaq keşişi yanına salıb kilsəyə gətirir. Ayrılmaq vaxtı gələndə keşiş:
- Afərin sənə, oğlum. Sabah bura gələrsən, sənə cənnətin yolunu göstərəcəyəm.

Uşaq keşişin niyyətini sezərək bu cavabı verir:
- Siz heç kilsənin yolunu tapa bilmirsiniz, cənnətin yolunu hardan bilirsiniz?

HƏR KƏS ÖZÜNDƏKİNDƏN VERƏR!

Hz. İsa (ə.s.) özünü təhqir edən bir nəfərə heç nə demir. Ondan:
- Nə üçün cavab vermədiniz?,- deyə soruşduqda:
- Hər kəs özündəkindən verər,- deyir. Onda olandan mənim yanımda yox idi.

Elşən RZAYEV
elshanrza@hotmail.com

ŞÜURUN İLAHİ HÜZURA MERACI: QURBAN

Sinəsində ürək yerinə daş gəzdirənlər necə anlasınlar qurbanı? Bir ömrü yalnız yemək, yatmaq, işləmək, istirahətlə keçirənlər, həyatın bundan başqa daha uca bir mənasını dərk etmədən yaşayanlar necə anlasınlar qurban edən İbrahimi, qurban edilən İsmayılı?

Sevməyənlər "Xəlilullah" olan İbrahimin röyasını, xülyasını, sevdasını necə xeyrə yoza bilərlər?

Ətrafınıza bir baxın: qurban olmayan birini görə bilirsinizmi? Bəziləri qara sevdasının, bəziləri ağ sevdasının qurbanıdır. Dünyaya, pula, vəzifəyə, var-dövlətə, şan-şöhrətə qurban olmaq və qurban etmək üçün növbədə duranların halına baxın.

"Mən heç bir şeyə qurban olmaram!" deyənlərə baxmayın, əslində onlar da mənliklərinə və eqolarına qurban olan zavallılardır.

Allah şirki özünə zərər verdiyi üçün deyil, insana zərər verdiyinə görə qadağan edir. Şirk əsil olaraq yaradılan insanın əşya qarşısında özünü dəyərsizləşdirməsidir. Hər şirk öz növbəsində insanın ilahi nizamdakı yerini unutması nəticəsində meydana gəlir. Kainatın bir nizamdan yoxsun olduğunu düşünmək, təsadüfi yaradıcı elan etməkdən başqa şey deyil. Quran insanın "əhsən/ən gözəl" şəkildə yaradıldığından bəs edir. Əslində bu, yaradılışdakı ilahi nizamın bir dəlilidir. İnsan varlıq sıralamasını hər dəfə bozduğunda öz başına iş açır. Saxta müqəddəslərin icad edilməsi ilə nəticələnən azğınlıqların əsasında varlıq sıralamasına hörmətsizlik vardır.

Əgər varlıq sıralaması pozularsa, o zaman insan qurban edilmiş olar. Ona görə də qurban sadəcə insanın Allah qarşısındakı həddini deyil, əşya qarşısındakı dəyərini də öyrənməsidir.

Quranda Adəm övladının əmrinə verilən ünsürlər xatırladılır: Ulduzlar, günəş, ay, okeanlar, çaylar, gecə, gündüz və heyvanlar… Bunlardan bəzilərinin qarşısında Adəm övladı özünü aciz hiss etmişdir. Bu acizlik getdikcə qorxuya, qorxu təzimə, təzim müqəddəsləşdirməyə, müqəddəsləşdirmə də sitayiş etməyə çevrilmişdir. Yaradılanlara sitayiş edən qədim qövmlərdən misal verək: Misir-

lilərin "günəş tanrısı", şumerlərin "ay tanrısı". Misirlilərin Nil çayını müqəddəsləşdirdikləri də buna misaldır. İnsanın əmrinə verilən ünsürlərdən vəhşi heyvanları təmsilən quşlar və ev heyvanlarını təmsilən də qurbanlıq heyvanlar onlara olan minnət hissi ilə başlayan mərhələnin nəticəsində müqəddəsləşdirilirdilər.

Cahiliyyət dövrünün insanları sonuncusu erkək olan beş bala verən dəvəni müqəddəsləşdirir, bunun əlaməti olaraq qulağını yarıb adını "qulağıyarıq" mənasına gələn "bahirə" qoyaraq özbaşına buraxırdılar. Nəslindən on dəvə gəlmiş erkək dəvəni müqəddəsləşdirib özbaşına buraxırdılar və adına "xam" deyirdilər. İlk doğumda əkiz doğan qoyun və keçinin əkizlərindən erkək olanını müqəddəsləşdirib buraxır və adını da "vasilə" qoyurdular. Bu heyvanlara bir işarə qoyub buraxır, onlara minmir, kəsib yemir, tükündən və südündən istifadə etmirdilər. Onlara qarşı bir minnət hissi ilə edilən bu davranışlar saxta bir müqəddəslik icadı idi. Bu saxta müqəddəslik və dindarlıq çörəyin sahibinə şükür edəcəyi yerdə çörəyə şükür edənin axmaqlığıdan başqa bir şey deyildir.

Qurban bu mənada yalnızca qulun Allaha yaxınlaşması deyil, həm öz varlığına, həm də özünü əhatə edən varlıqlara doğru şəkildə yaxınlaşmasıdır. Qurban bir mənada "Allahım, sənin varlıq üçün qoyduğun nizamı pozmayacağam" sözüdür.

Qurban Yaradanın yaratdıqlarının yerini və məqamını təyin etmə haqqını qəbul etmək və bu haqqa riayət etməkdir. Buna riayətsizliyi məxluqata zülm olaraq görməkdir.

Kəsdiyimiz heyvanlara "qurban" adını verməyimiz əslində məcazidir. Çünki heyvanlar kəsildiyi üçün Allaha yaxınlaşmırlar. Heyvanların "təqva"sından da danışmaq mümkün olmadığına görə əslində qurban hadisəsi insanın yaradılış məqsədini pozulmadığının isbatıdır. Canını verən qurbanlıq heyvan olduğu halda, bizdən Allaha təqvanın çatması nə deməkdir?

Kəsdiyimiz heyvanlara "qurban" adını verməyimiz əslində məcazidir. Çünki heyvanlar kəsildiyi üçün Allaha yaxınlaşmırlar. Heyvanların "təqva"sından da danışmaq mümkün olmadığına görə əslində qurban hadisəsi insanın yaradılış məqsədini pozulmadığının isbatıdır. Canını verən qurbanlıq heyvan olduğu halda, bizdən Allaha təqvanın çatması nə deməkdir?

Şüurun ilahi hüzura merac etməsi, yəni Allahın hüzuruna çıxması deməkdir. Canlıların ruhu olduğu kimi saleh əməllərin də ruhu vardır. Saleh əməllərin ruhu şüurlu olaraq yerinə yetirilməsidir. Qurbanın ətləri və qanları çatmadığı halda, Allaha quldan yüksələn təqva məhz həmin şüurdur. O halda kəsilən heyvanın bədəni üzərində edilən fiqhi yorumlar bir yana, əslində qurban hadisəsində həqiqi qəhrəman kəsilən heyvan deyil, o qurbanı kəsən insandır. Çünki insan təqvası ilə Allaha yaxınlaşma qabiliyyətinə sahibdir. Buna görə də ölmək məcburiyyətində də deyil insan. Lakin Rəbbi ilə arasındakı dünyəvi əlaqələri kəsib atmaq məcburiyyətindədir. Bunu bacara bilən insan həqiqi bir qurban olacaqdır.

Bu gün daha da aydın görünür ki, ən uca sərmayəsi olan həyatlarını özlərindən aşağı dəyərlərdəki şeylər uğrunda xərcləyənlərin sayı-hesabı yoxdur. Məhz İbrahim və İsmayıl insanın adi şeylər uğrunda xərclənməməsi üçün ən uca dəyər uğrunda nəzir etmənin və qurban getmənin yolunu göstərmişdir.

İlham SOVQATOV
ilhamsovqatov@mail.ru

İBRAHİM PEYĞƏMBƏRİN QURBANI

KƏSİLƏN ÖVLAD və ATA MƏHƏBBƏTİ

Hər il Zilhiccənin 10-cu günü müsəlmanlar Qurban bayramını qeyd edirlər. Müsəlmanların bir hissəsi həcc ziyarətində olanda, bir hissəsi də öz evlərində Allah yolunda Qurban kəsirlər. Beləliklə, Qurban bayramı təntənəli sürətdə qeyd olunur, dünya müsəlmanları bu bayramı sevinclə qarşılayır və hər kəs istəyir ki, qurban kəssin. Bu çox gözəl bir haldır. Həqiqətən, istər Ramazan bayramı olsun, istərsə də Qurban bayramı olsun, bu bayramlarda xüsusi bir ab-hava vardır. İstər-istəməz insanın qəlbinə bəzi anlaşılmaz hisslər dolmağa başlayır və insan bunun hikmətini çözməyə çox çalışsa da, yenə bu sirli, müəmmalı duyğunu çözə bilmir. Ancaq hər kəsin ürəyində bir fərəh, bir sevinc, üzlərdə də bir təbəssüm olur. Bu da onu göstərir ki, bayram gələndə özü ilə sevinc də gətirir. Hamı sevinir, hamı qurban kəsir, evlərində qurbanlıq əti bişirilir və s. Bu, bizim gördüyümüz tərəfdir. Ancaq bizim görmədiyimiz tərəf də mövcuddur.

Hamı bayram etmək istəyir, ancaq hamı bayram edə bilmir. Qurban kəsmək də zəkat, həcc, fitrə sədəqəsi kimi maddi imkana bağlı bir ibadətdir. Yəni belə desək, mal ilə edilən ibadətlərdəndir. Bunun üçün də nisab miqdarı mala sahib olmaq lazımdır. Bundan sonra qurban kəsmək müsəlmanın boynuna vacib olur. Əgər müəyyən edilmiş nisab miqdarı mala sahib deyilsə, yəni dini cəhətdən zəngin sayılmırsa, qurban kəsmək üzərinə vacib deyil. Bəli, maddi imkan burada önəmlidir. Beləliklə, zəngin olmayan möminlər də qurban kəsmək həsrətilə alışıb yanırlar. Hətta bəzi yoxsul insanlar öz övladlarına qurban ətindən bişirə də bilmirlər. Bu bayram zənginlərin, qurban kəsənlərin bayramı deyil, bütün müsəlmanların bayramıdır. İstər zəngin ol, istər yoxsul ol, istər qurban kəs, istər qurban kəsmə bunun heç bir bayrama aidiyyəti yoxdur. Əsas odur ki, bu bayramı qəlbində yaşadasan və qəlbən bu bayramın sevincini yaşayasan.

Qurban ibadəti həqiqətən, böyük bir ibadətdir. Qurban təslimiyyətin kulminasiya nöqtəsidir. Qurban

kəsmək İbrahim (ə.s) peyğəmbərin övladı ilə imtahana çəkildiyi, İsamyıl (ə.s) peyğəmbərin canından keçdiyi bir ibadətdir. Qurbanlıq, İbrahim peyğəmbərin yuxusunun, İsmail (ə.s) peyğəmbərin Allaha təslimiyyətinin ta qiyamətə qədər yaşanan simvolik bir xatirəsidir. "Əgər Allah əmr edibsə, Allahın əmrini yerinə yetir"-deyə bilən İsmayıl peyğəmbəri bir oğul, bir övlad kimi, "Allahın əmridir, lazım gəlsə, canımdan bir parça olan övladımı belə Allah yolunda qurban verərəm" deyən İbrahim peyğəmbəri bir ata kimi, bir valideyn kimi gözümüzün önünə gətirək.

İbrahim-İsmayıl peyğəmbərlərin bu qurban kəsmə əhvalatı bizə bir hekayə kimi, keçmişdə baş vermiş bir qissə kimi gəlir. Bu gün biz bir çox insanları müşahidə edirik ki, atadır və övladının əlinə bir tikan batmasını belə istəməz. Uşağının adicə göz yaşına dözə bilmir. Bir ata məhəbbəti ilə övladına başına fırlanır, qollarını pərvaz edib uşağını bütün təhlükələrdən qoruyur. Bəli, olduqca təsiredici hadisədir. Bəzən filmlərdə izləyirik: atanın gözü qarşısında oğlu ölür və ya öldürülür. Adam filmdəki bu "ata"nın ah-naləsinə belə qeyri-ixtiyari kövrəlir. Qəza nəticəsində cavan ölən oğlunun qəbri üstündə atanın çəkdiyi ah-naləsi bizi və ətrafdakı bütün insanları ağlatmışdı. Bəli, bu ata məhəbbətidir. İndi də İbrahim (ə.s) peyğəmbəri bir ata kimi təsəvvür edin. Oğlu gözü qarşısında kəsiləcək. Oğlu gözü qarşısında can verəcək. Ataların belini qıran, ürəyinə dünyanın ən ağır dağını çəkən övlad ölümünü öz gözləri ilə görəcəkdir. Bəli, olduqca çox çətin bir imtahandır. Belə imtahandan hər kəs üzüağ çıxa bilmir. Elə götürək, Nuh peyğəmbəri, o, oğlunun sularda həlak olmasına razı olmadı. Hətta Allaha belə yalvardı ki, Allah oğlunu qorusun və bağışlasın. Ata ürəyidir, dözmədi. Övlad sevgisi, övlad dərdi böyükdür.

Həqiqətən, İbrahim peyğəmbər (ə.s) öz oğlunu kəsəcək. İndi müasir düşüncə ilə bunu heç cür qəbul edə bilmirik. Beynimizdə insanın insanı qurban verməsi müasir ağlın qəbul etmədiyi bir haldır. Lakin

Qurbanlıq Allah qarşısında sınaqdan üzüağ çıxmaqdır. Hərçənd ki, biz övladlarımızı kəsmirik, onun yerinə heyvan kəsirik, ancaq yenə İbrahimin sünnəsi davam edir, onun sınaq mərhələsi və mükafatı davam edir. Yəni Qurban ibadətini kəsdiyimiz heyvan deyib dəyərsiz kimi görmək olmaz.

İbrahim (ə.s) peyğəmbərin dövründə isə məhz İbrahim (ə.s) peyğəmbər ilə İsmayıl (ə.s) peyğəmbəri imtahan etmək üçün Allah-Təalanın verdiyi bir əmr idi.

İbrahim (ə.s) peyğəmbər ilə İsmayıl peyğəmbər bu sınaqdan üzüağ çıxdılar. Bəs, biz bu gün kəsdiyimiz qurbanlarda nə qədər İbrahim (ə.s) peyğəmbər kimi oluruq, nə qədər İsmayıl (ə.s) peyğəmbər kimi oluruq. Bəli, biz heç vaxt nə peyğəmbər, nə də peyğəmbər qədər ola bilmərik. Amma onların əməllərinə qiymət verə bilərik. Qurbanlıq Allah qarşısında sınaqdan üzüağ çıxmaqdır. Hərçənd ki, biz övladlarımızı kəsmirik, onun yerinə heyvan kəsirik, ancaq yenə İbrahimin sünnəsi davam edir, onun sınaq mərhələsi və mükafatı davam edir. Yəni Qurban ibadətini kəsdiyimiz heyvan deyib dəyərsiz kimi görmək olmaz. Çünki qurbanlıq elə bir ibadətdir ki, onu yerinə yetirmək üçün bir peyğəmbər digərini qurban kəsməyə hazır idi. Deməli, Qurban kəsməklə Allah dərgahında bizim dəyərimiz artır.

İndi bütün müsəlmanlar Allah yolunda qurban kəsirlər. Hər qurban kəsiləndə İbrahim və İsmayıl peyğəmbər nə qədər yad olunur? Bəli, qurban kəsmək böyük bir şərəfdir. Burada təqva əsasdır. Allah kəsilən bütün qurbanları qəbul etsin!

Saleh ŞİRİNOV
salehsirin@hotmail.com

Qurana və sünnəyə Münasibətimiz

Tarix səhnəsinə nəzər saldığımızda müsəlmanların, xüsusilə də, onların öndərləri olan peyğəmbərlərin bir çox işkəncə və sıxıntılara məruz qaldıqlarını görürük. Zəkəriyyə (ə.s) mişarla kəsilmiş, Hz. Musa (ə.s) Fironun əziyyətlərinə məruz qalmış, İbrahim (ə.s) atəşə atılmışdı. Əziz Peyğəmbərimizin (s.ə.s.) həyatına baxdığımızda da vəziyyətin digərlərindən fərqli olmadığını görürük.

Bu peyğəmbərlərin və onların yolundan gedən insanların bəzi çətinliklərlə qarşılaşmalarının tək səbəbi Allaha layiqli bəndə olma arzularıdır. Bunların tək məqsədləri isə, insanlara insan olduqlarını və digər canlılardan fərqli olduqlarını xatırlatmaq və onları yoxdan var edən bir Yaradıcının, Allahın olduğunu və bu Allahın bir və tək olduğunu öyrətmək və insanları bu inanca çatdırmaqdır. Həmçinin onları dünya və axirətdə hüzur və xoşbəxtliyə qovuşdurmaqdır. Bu cür ülvi məqsədi olmalarına baxmayaraq peyğəmbərlər və onların ümmətləri, haqqı anlamamaqda israr edən bəzi inadkar insanlar tərəfindən cürbəcür işgəncələrə məruz qalmışdırlar.

Qurani-Kərimdə Uca Rəbbimiz belə buyurmaqdadır: **"Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, insan çox zalım, çox cahildir. (İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi)"** (əl-Əhzab 72).

Peyğəmbərimiz (s.ə.s) də vida xütbəsində belə buyurmuşdur: *"Ey Möminlər! Sizə iki əmanət buraxıram. Onlara möhkəm şəkildə sarıldığınız müddətcə əsla çaşmaz və sapmazsınız. Onlardan biri Allahın kitabı Qurani-Kərim, digəri isə mənim sünnəmdir"* (Muvatta, Müstədrək).

Quran və sünnə əmanət olaraq bizə buraxılıb. Biz bunu dərindən dərk etməliyik. Bununla yanaşı, bu iki əmanət müsəlman olaraq bizim özəyimiz, öz mənliyimiz və hər şeyimizdir. Biz əsrlər boyu Allah kəlməsinin ucalması üçün, bizə verilən bu müqəddəs əmanətlər üçün mücadilə edən, onların ayaqda qala bilməsi üçün malını, canını fəda və səfərbər edən bir nəslin davamçılarıyıq.

Bu gün biz də yenə eyni şövq, həvəs və əzmkarlıqla Rəbbimizin və Əziz Peyğəmbərimizin bizə əmanət olaraq verdikləri bu ülvi dəyərlərə şüurlu şəkildə sahib çıxırıq və onları həyatımıza tətbiq etməklə birlikdə, insanlara ən doğru şəkildə təbliğ etməyin həyəcanıyla yaşamaqdayıq. Savadsızca, kortəbii şəkildə deyil, insanları qruplara ayıraraq, parçalamadan, bəzi kiçik fərqlərdən ötrü digər müsəlman qardaşlarına nifrət aşılamadan sevgiylə, sayğıyla, camaat, vəhdət olmaq arzusuyla şüurlu şəkildə İslamı təbliğ edirik. Tək məqsədimiz, Quran və sünnənin yaşamasıdır, yaşanmasıdır. Quran və sünnə əxlaqının həyatımıza hakim olmasıdır. Bu səbəblə də biz hamımız, bu müqəddəs əmanətləri qoruya bilmək, yəni əmanətə haqqıyla riayət edə bilmək üçün hər şeydən əvvəl Quranı və sünnəni çox yaxşı anlamaq məcburiyyətindəyik. Quran və sünnəni anlamaq isə, həyatımızı Allah və Rəsulunun istədiyi şəkildə yaşamaq və qurmaqla mümkündür. Bunun üçün də oxumaq və öyrənmək lazımdır. Sadəcə bir-iki kitab oxuyaraq kifayətlənməmək lazımdır. Özümüzü daim bilgiləndirməyə çalışmalı, bu xüsusda təşkil olunan dərslərdən istifadə etmək lazımdır ki, peyğəmbər sünnəsindən, hədislərindən və həyatından, Quran məalından, elmihal biliklərindən xəbərimiz olsun. Xəbərimiz olsun ki, yuxarıda bəhs etdiyimiz kimi, Quran və sünnəyə layiqli şəkildə sahib çıxıb, qoruyaq və həyatımıza doğru şəkildə tətbiq edə bilək.

Əmanətə haqqıyla riayət edə bilmək üçün hər şeydən əvvəl Quranı və sünnəni çox yaxşı anlamaq məcburiyyətindəyik. Quran və sünnəni anlamaq isə, həyatımızı Allah və Rəsulunun istədiyi şəkildə yaşamaq və qurmaqla mümkündür. Bunun üçün də oxumaq və öyrənmək lazımdır. Sadəcə bir-iki kitab oxuyaraq kifayətlənməmək lazımdır. Özümüzü daim bilgiləndirməyə çalışmalı, bu xüsusda təşkil olunan dərslərdən istifadə etmək lazımdır ki, peyğəmbər sünnəsindən, hədislərindən və həyatından, Quran məalından, elmihal biliklərindən xəbərimiz olsun.

Bəzi dünyəvi mənfəətlər, bizə bu əmanətlərə sahib çıxmağa mane olmamalıdır. Çünki, əmanətə riayət etmək, insan olmağın və xüsusilə də, müsəlman olmağın bir gərəyidir. Cənnəti qazanmaq da ancaq əmanətə riayət etməklə mümkündür.

Əziz Peyğəmbərimiz (s.ə.s) bu xüsusda buyurur: *"Bu altı şeyi edəcəyinizə söz verin, mən də sizin cənnətə girəcəyinizə söz verim: Namazı qılın, zəkatı verin, əmanətə riayət edin, zinadan uzaq durun, halal yemək yeyin və dilinizi (küfür, yalan, qeybət, lənət, boş sözlər kimi) pis sözlərdən (danışıqlardan) qoruyun"* (Təbərani).

Mübariz ƏLİOĞLU

İLAHİ HƏDLƏRİ QORUMAQ

Uca Allah (c.c) Qurani-Kərimdə belə buyurur: **"And olsun axşam çağına ki, insan (ömrünü bihudə işlərə sərf etməklə dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, birbirinə haqqı tövsiyə edən və səbri tövsiyə edənlərdən başqa (belələri cənnətə nail olub əbədi səadətə qovuşanlardır)"** (əl-Əsr, 1-3).

Bizi xəlq edən və özünə qulluqla şərəfləndirən Uca Allaha (c.c) şükürlər və həmd-sənalar olsun. Qulluğun zahiri və batini həqiqətlərini cümləmizə təlim edən və ona ümmət olma şərəfinə yiyələnənlərə əmsalsız bir məhəbbətlə bağlanan Allahın Haqq Rəsulu Muhammməd əleyhissəlama salət və salam olsun.

«Ərşin su üzərində ikən hansınızın daha gözəl əməl sahibi olacağını sınayıb bilmək üçün göyləri və yeri altı gündə yaradan» (Hud,17) Rəbbimizin üzərimizə təyin etdiyi məsuliyyət yükünü daşıma bacarığı ərsəyə və yalnız Haqq Rəsulu Muhammməd əleyhissalama sözsüz tabeçiliklə ərsəyə gələcək bir səadətdir. "Hud" surəsinin 7-ci ayəsində buyurulan hikmətlər ağlı başında olan hər bir Adəm övladını, mənliyini əbədi fəlakətə aparan bütün əlaqələrdən qurtulmağa səsləyir. Çünki miqyasını anlamaqda aciz qaldığımız bu qocaman kainat insanın hər bir hərəkətinə həmən əks-səda verəcək bir möhtəşəmliklə bina edilmişdir. «Söylədikləri şirk kəlməsindən dolayı göylərin az qala çatlamağı gəlir» ayəsi və *"Sad bin Muazın vəfatına görə Rəhmanın ərşi titrədi"* hədisi insan, Quran, kainat əlaqəsinin zənginliyinə və bütövlüyünə dəlalət edən misallardan sadəcə bir neçəsidir. Quran kainat və insan əlaqəsinin hərtərəfli öyrənilməsi və yaşanması Allah Rəsulunun gətirmiş olduğu sünnə ölçülərinə tam mənada riayət etməklə dəyər qazanacağı şübhəsizdir. Çünki Qurani-Kərim və Muhəmməd (s.ə.s) sünnənin tələblərinə uyğunlaşdırılmış təqva azuqəsi ilə ilahi hədləri gözləmə yarışında iman müvazinətini saxlamaq mümkündür. Bu müvazinətin şərtlərini ümmətinə açıqlayan Allah Rəsulu ilahi mərhəmətin canlı təcəssümü olaraq bizləri bir daha ayıq olmağa səsləyir. Abdullah bin Abbasdan rəvayətlə Rəsulullah belə buyurdu:

"Sizləri xəbərdar edirəm! Cəhənnəmdən qorunun. Allah-Təalanın qoyduğu sərhədləri aşmayın. *Öldüyünüzdə tərk edilirsiniz və mən sizin üçün hovuzumun başında olacağam».*

İlahi hüdudları qoruma istiqamətində Allah Rəsuluna haqqı ilə bağlı kəslərin bu hovuzun başında görəcəkləri qəbul əməllərinə müvafiq olacaqdır. Eyni zamanda ilahi hədlərə qarşı yarıtmaz münasibəti özünə yük edənlərin hovuz başındakı qəbulu mümkünsüz hala gə-

ləcəkdir. Uca Allah «Kövsər» hovuzunda qəbul görəcək insanları Qurani-Kərimdə tanıdaraq möminlərə açılacaq rəhmət qucaqlarını belə təsvir edir:

"Eyni iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin. (Əgər belə etsəniz, Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə nail olar" (əl-Əhzab, 70-71).

İnsan övladına əbədi səadətin sərmayəsini qazandıracaq ilahi hədləri gözləmə qətiyyəti Rəsulullahın yetişdirmiş olduğu səhabə toplumunun ibadət həyatında görünməmiş bir mərtəbəyə ucalmışdı. Rəsulullahın xəlifəsi olan Hz. Əbu Bəkr Siddiqin ümmətə yönələn xütbəsində bu məqamları aydın şəkildə dəyərləndirməsi, ilahi hədləri gözləmə mübarizəsində səhabə toplumuna qüvvət qazandıran mühüm bir çağırışdır.

«Allahın sizə vəd etdiyi rəhmətini qazanmaq üçün yarışın. Çünki Allahın sizdən öncəkilərə həm həlaka aparan, həm də onları qurtaran səbəbləri açıqlamışdır. Kitabda nələrin haram, nələrin halal olduğu, hansı əməlin vacib, hansının da edilməməsi göstərilmişdir. Yaxşı bilin ki, sizlər etdiyiniz əməllərdə ixlaslı olduğunuz müddət ərzində yalnızca Allaha itaət etmiş və öz nəsibinizi mühafizə etmiş olursunuz. Zərurət olduğu bir anda da etmiş olduğunuzun mükafatına yiyələnərsiz".

Quran həqiqətlərini incədən-incəyə mənimsəmə yarışına qoşulan Hz. Ömərin qulluq həssasiyyəti müəkəmməl bir örnək olmaqla yanaşı, bir xəbərdarlıqdır. Əsl həqiqətdə kafirlərin acınacaqlı halından bəhs edən: **"Yer üzərində nə (sərvət) varsa, hamısı üstəlik bir o qədəri də kafirlərin olmuş olsaydı, mütləq onu qiyamət gününün pis əzabından qurtarmaq üçün fidyə verərdilər. (Lakin onlardan bu fidyə qəbul olunmaz). Və Allahdan onlara güman etmədikləri (əzab) görünəcəkdir"** (əz-Zümər, 47) ayeyi-kəriməsini öz nəfsinə tətbiq etmə cəsarətinə baş vuran Hz. Ömərin (r.a) qorxu və ümid arasında Rəbbimizin günahkar qullarına vəd etdiyi dəhşətli aqibətin acısını dünyada ikən bütün varlığı ilə hissetmə və yaşama mühitinə yüklənməsi necə də diqqətə layiqdir. Ümmətin dərdləri ilə dərdlənən onun dünya və axirət qayğılarını ayədə buyurulan dəhşətli əzab səhnələri ilə birləşdirən bir insanın qəlb aləmində baş verənləri hansı dil, hansı ağız və hansı məna anlada bilər ki?..

Hz. Ömər (r.a) belə buyurur: «Vallahi əgər günəşin üzərinə doğub-batdığı hər şey mənim olsaydı, hamısını o günün (hesab gününün) qorxusundan qurtulmaq üçün fidyə verərdim».

Məzh bu dünyada ilahi hədlərə xüsusi bir həssaslıqla yanaşmaqla cəhənnəm dəhşətini qəlb aləmini qovuracaq ölçüdə mənliyində yaşatmaqla, zahiri və batini aləmi dünyəvi və nəfsani kirlərin əsarətindən təmizləmək mümkündür. Deməli, dünyada ikən ilahi hüdudları qoruma yarışında yalnız «**Allahı layiqincə uca tut**" (İsra, 111) əmri-ilahisinə misilsiz bir təslimiyyət və bağlılıq nümayiş etdirən Peyğəmbər (s.ə.s) və Onun əshabının izində getməklə müvəffəqiyyət qazanmaq mümkündür. Allah və Onun Rəsuluna sevə-sevə fəda edilən bu canların Rəbləri qatındakı dəyəri də çox ucadır:

«Öncədən özlərinə ən gözəl nemət (cənnət, əbədi səadət) yazılmış kəslər məhz onlar ondan (cəhənnəmdən) uzaqlaşdırılmış olacaqlar. onlar (cəhənnəmin) uğultusunu belə eşitməyəcəklər. O**nlar (cənnətdə) ürəklərinin istədiyi nemətlər içində əbədi qalacaqlar**" (Ənbiya, 1201-103) ayeyi-kəriməsini eşidən Hz. Əli (r.a) bunları söyləmişdi: "Əbu Bəkr, Ömər, Osman, Mən, Talha və Zübeyr, Sad və Abdurrəhman ayədə bəhs edilən şəxslərdənik». Rəbbimiz cümləmizi bu möhtəşəm mükafata nail olan təqva sahiblərindən eləsin. Amin.

Fuad QULİYEV
fuadguliyev@hotmail.com

BİR AYƏ

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ*مَا أُرِيدُ مِنْهُمْ مِنْ رِزْقٍ وَمَا أُرِيدُ أَنْ يُطْعِمُونِ* إِنَّ اللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ*

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım! Mən onlardan ruzi istəmirəm. Mən onlardan (ehtiyacı olan bəndələrimi) yedirtmələrini də istəmirəm. Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır". (əz-Zəriyat, 51/56-58)

Bu ayə həddindən artıq əhəmiyyətli bir həqiqəti ehtiva edir ki, bu həqiqət doğru dərk olunmadan yer üzərində nizam intizam bərqərar olmaz. Bu həyat istər fərdi həyat olsun, istərsə də ictimai həyat olsun bütün dövr və zamanlara şamildir.

İnsanların və cinlərin yaradılışının şübhəsiz bir məqsədi vardır. Bu məqsəd elə bir vəzifə ilə simvollaşdırılmışdır ki, kim bu vəzifəni icra edərsə, varlıq və yaradılış məqsədini yerinə yetirmiş olar. Yerinə yetirməyən və ya bu vəzifədən boyun qaçıran isə yaradılış məqsədini itirmiş olar. Belə bir varlıq başı boş bir həyat yaşayar və məsuliyyətini qat-qat artırmış olar.

İnsanların və cinlərin varlıq səbəbi Allaha ibadət və Ona layiqli bir qul olmaqdır. Digər bir ayəyə görə ibadəti ilə özünü Allaha bağlayan insan həmçinin Allahın yer üzərindəki xəlifəsi kimi önəmli bir keyfiyyətə malik olmuşdur. Buradan da məlum olur ki, insanın yaradılış məqsədi və ən önəmli vəzifəsi olan ibadətin mənası sadəcə müəyyən simvolik davranışları etməkdən daha genişdir. Bu halda həqiqi ibadət məfhumu iki əsas ünsürdə mücərrəd hala gəlir:

-Allaha ibadətin mənasını ruhlara yerləşdirmək.

-İbadət vicdandakı hər hərəkətdə, orqanların hər işləyişində, həyatdakı hər davranışda Allaha tərəf yönəlməklə canlı tutmaq.

İbadət bu iki ünsür ilə birlikdə məna kəsb edir. Görülən işlər və əməllər o zaman Allah dərgahında savab dərəcəsinə yüksəlir və dəyər qazanır.

İbadət məfhumunun digər bir cəhəti də işlənən əməllərin ruhlardakı dəyərlərin o əməllərin nəticələrinə görə deyil, səbəblərinə görə olmasıdır. Nəticə nə olursa olsun, insan heç bir zaman nəticələrə bağlı deyildir. Çünkü o bu əməli işləyərkən ibadət vəzifəsini yerinə yetirmək niyyəti ilə etməkdədir. Və çünki ona veriləcək mükafat o əməllərin nəticələrinə görə deyil, yerinə yetirdiyi əməllərin qarşılığı olacaqdır. Belə olduqda insanın vəzifələri, məsuliyyətləri və əməllərə qarşı baxışı bütövlüklə dəyişir və qurtuluş vəsiləsini daha da düzgün dərk etməyə başlayır.

İbadətin həyata keçirilməsi üçün heç bir maneə bəhanə olmamalıdır. Xüsusilə insanı ən çox narahat edən məsələlərin başında "ruzi" məsələsi gəlir. Uca Yaradan bu məqamı da yuxarıdakı ayənin davamında çox gözəl qeyd edir. **"Mən onlardan ruzi istəmirən, məni bəsləmələrini də istəmirəm. Şübhəsiz ruzi verən, güc-qüvvət sahibi ancaq Allahdır".**

Allah, ibadət şüurunu daşıyan, dərk edən və ibadəti haqqı ilə əda edən bəndələr zümrəsindən etsin ! Amin.

Səfa MURADOV
sefamuradov@gmail.com

BİR HƏDİS

عَنْ صَفِيَّةَ، عَنْ بَعْضِ أَزْوَاجِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ عَنِ النَّبِيِّ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: {مَنْ أَتَى عَرَّافًا فَسَأَلَهُ عَنْ شَيْءٍ، لَمْ تُقْبَلْ لَهُ صَلَاةٌ أَرْبَعِينَ لَيْلَةً}

Safiyyə (r.a) Rəsulullahın (s.ə.s) bəzi zövcələrindən Onun (s.ə.s) belə buyurduğunu rəvayət etmişdir: "*Falçının yanına gedib ondan bir şey soruşan kimsənin qırx gecə (gün) boyunca qıldığı namaz qəbul olunmaz*" (Müslim, Salam, 35).

Gələcəkdə nə baş verəcəyinə dair məlumat əldə edib, baş verəcək hadisələri əvvəlcədən bilmək arzusu hər dövrdə insanların marağında olmuşdur. Bu məsələ bu günümüzdə də öz aktuallığını qoruyub saxlamaqdadır. Bu sahə inanc baxımından zəif olan kimsələrin ən çox maraq göstərdiyi sahələrdəndir. Çünki zəif bir inanca sahib olan bir şəxs Allahın təqdirinə tam bir təslimiyyət göstərə bilməz. Sağlam inanca sahib olan bir kimsə isə baş verən və baş verəcək hər bir işin təqdiri-ilahi daxilində olduğuna təslimiyyət göstərmişdir.

Qeybdən xəbər verməyin adı kəhanətdir. Yəni falçılıqdır. Kahin- gələcəkdən xəbər verdiyini iddia edən falçıya deyilir. Hədisi-şərifdə qeyd olunan «**Arraf**» da kahin mənasına gəlməkdədir. Lakin arraf oğurlanmış və ya itmiş hər hansı bir malın və ya əşyanın yerini xəbər verən kimsəyə deyilir.

Allah-Təala Qurani-Kərimdə falçıların istifadə etdikləri fal oxlarının günah olduğuna işarə edərək onlardan uzaq durmağı əmr etmişdir. Allah-Təala belə buyurur: "**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız**" (Maidə, 5/90). Ayədə falçıların istifadə etdikləri fal oxlarının pislənməsi, eyni zamanda falçılığın günah bir əməl olduğunu bildirməkdədir. Bu səbəblə də, ayədən yola çıxaraq falçılığın haram hökmündə olduğu anlaşılmaqdadır. Haram bir davranış da insanı axirət səadətindən məhrum edər.

Hədisi-şərifdə falçıya gedib onun dediklərinə inanan kimsələrin gələcək qırx gün içində qılacaqları namazlarının qəbul edilməyərək bu şəkildə cəzalandırılacağı bildirilməkdədir. Cəzanın namazların qəbul edilməməsi şəklində təyin olunması namazın mahiyyət və həqiqətini dərk edənlər üçün böyük bir itkidir. Çünki namaz dinin dirəyi olmaqla, eyni zamanda axirətdə də ilk soruşulacaq əməllərdəndir. Axirətdə qırx günlük namazın əksikliyi insanın axirətini məhv etmək üçün kifayətdir. Bu da falçıya getməyin və onun dediklərinə inanmağın nə qədər böyük bir günah olduğuna işarə etməkdədir.

Şeytanın və nəfsinin vəsvəsəsinə uyaraq falçıya gedən bir kimsənin etdiyi əməldən peşmançılıq duyması və mərhəmətli olan Allaha sığınaraq etdiyi günahın bağışlanmasını ümid etməsi onun bağışlanması ehtimalını gücləndirər. Odur ki, həqiqətləri tərk edib ehtimallar və yalanlar dəryasına qərq olmaq insana heç bir şey qazandırmaz. Əksinə, insanı bir çok xeyirli işlərdən məhrum edər.

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

HAQQ DOSTLARINDAN HİKMƏTLƏR
İMAM RƏBBANİ (q.s)
-5-

İmam Rəbbani həzrətləri buyurur:

"Sufilərin yoluna girməkdən məqsəd (kəşf və kəramət sevdasına qapılaraq) qeyb aləminə aid bir sıra surətləri və şəkilləri müşahidə etmək və bəzi fərqli rəngləri, işıqları görmək deyil... görünən aləmdəki nurların və surətlərin nə nöqsanı var ki, bunlar ola-ola insan bəzi riyazət və mücahidələrlə məşğul olaraq qeyb aləminə aid surət və nurları görmək arzusuna düşür. Hər iki aləmdəki surət və nurlar da Allah-Təalanın yaratdıqlarıdır və Onun varlığına dəlalət edir."[1]

[Mənəvi tərbiyə yolu olan təsəvvüfdə əsas məqsəd Haqqa qulluqda məqbul olan səviyyəyə yüksəlmək, imanın kamalına çatmaq və beləcə Allahın rizasını qazanmaqdır. Yoxsa kəşflərə, kəramətlərə nail olmaq və keyfiyyəti məchul olan aləmləri seyr etmək deyil. Çünki bunlar mənəvi yolda görsənən kölgələrdir ki, birdən itə bilərlər.

Haqq-Təalanın biz qullarından istədiyi "qəlbi-səlim"ə nail ola bilmək, yəni tərtəmiz və paklanmış bir könüllə Haqqın hüzuruna da dura bilmək də yalnız zahiri və batini qulluq vəzifələrimizi ixlasla ifa etməmizə bağlıdır. Bu xüsuslarda əlimizdən gələn səyi göstərməliyik ki, qəlbimiz Allahdan başqasına meyl etməsin, Haqqın zikriylə aram tapsın və sükunətə qovuşsun...

Necə ki, bu xüsusda ibrət alınacaq misal olaraq Qurani-Kərimdə **Bəlam bin Baura**dan söz açılır. Belə ki, bu şəxs özünə kəşf və kəramətlər bəxş edildiyi halda, dünyaya meyl edib, nəfsi ehtiraslarına məğlub olduğu üçün ilahi qəzəbə düçar olmaqdan qurtula bilməmişdi.[2]

Kəşf və kəramət kimi müstəsna hallar bəzi qullara, bəzən ilahi bir lütf, bəzən də ilahi bir imtahan olaraq verilən, lakin aşılması lazım olan mərhələlərdir. Bu mərhələlərdə ilişib qalmaq Haqq yolçusunu əsl məqsədindən uzaqlaşdırar.

Bu səbəblə Allah dostları fiziki kəramətlərə əhəmiyyət verməmiş, bütün səylərini əsl kəramət olan "istiqamət"i mühafizə üzərində sərf etmişlər.

Bəyazid Bistami həzrətlərinin belə dediyi nəql edilir:

"Bir gün Dəclə çayının qarşı sahilinə keçəcəkdim. Çayın hər iki sahili mənə yol

vermək üçün kəramətlə birləşdi. Dərhal özümü yığışdırdım və Dəcləyə belə dedim:

"And olsun ki, mən buna aldanmaram! Çünki qayıqçılar adamı yarım axçaya qarşı tərəfə keçirirlər (Sən isə otuz ildən bəri məhşər üçün hazırladığım saleh əməllərimi istəyirsən). O halda yarım axça üçün, otuz illik ömrümü (özümdə bir varlıq və mənlik hiss etməmə səbəb olacaq belə bir kəramət uğrunda) ziyan edə bilmərəm. Mənə Kərim lazımdır, kəramət yox!"[3]

Yəni insan üçün mühüm məsələ Haqq-Təalanın rizasını qazanmaq yolunda səmimiyyət və təvazökarlıqla irəliləməkdir. Bu səfərdəki aldadıcı kölgələrə bağlanmamaqdır.

Həmçinin imandan ehsana yüksəlməyi hədəfləyən təqva səfərində kəşf və kəramətlərə nail olub-olmamaq mənəvi irəliləyişin yeganə ölçüsü deyil. Necə ki, bir çox rəvayətdə[4] peyğəmbərlərdən sonra insanların ən xeyirlisi olduğu bildirilən **Həzrət Əbu Bəkr** ﷺ-ın da fiziki və zahiri kəramətinə dair bir o qədər də rəvayət yoxdur. Onun ən böyük kəraməti Allah Rəsuluna olan misilsiz sədaqəti, müstəsna təslimiyyət və itaətidir. Həzrət Peyğəmbərin ﷺ örnək şəxsiyyətinə aid bütün xüsusiyyətlərin ona ən yüksək səviyyədə sirayət etməsidir.

Bu nöqteyi-nəzərdən mənəvi tərbiyə yolunda kəşf və kəramətlərə sahib olmadan təkamül etməyin daha xeyirli olduğu bildirilmişdir. Çünki bu kimi halları müşahidə edənlər bəşər olmaq sifətiylə təkəbbürə qapıla bilər, özlərinin təkamül etdiklərini düşünərək himmətlərini, yəni mənəvi səylərini azaltma xətasına düşə bilərlər.

Halbuki ayeyi-kərimədə:

"Və sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et!" (əl-Hicr, 99) buyurularaq Haqqa qulluqda son nəfəsə qədər səy göstərməmiz əmr edilməkdədir.

Kəşf və kəramət kimi təcəlliləri yaşamadan, istiqamət üzrə səbirlə yola davam edənlər isə təkəbbür, lovğalıq və tənbəllikdən daha çox ehtiyat edərlər. Özlərini daim nöqsanlı gördükləri üçün Allaha qarşı heçlik və yoxluq hissi ilə mənəvi səy və əzmlərini daha da artırma arzusu içində olarlar.

Necə ki, **Tahal-Həriri** (q.s) bu həqiqəti ifadə mahiyyətində belə buyurmuşdur:

"Kəşf sahibi salik ilə kəşfi bağlı salikin halı gözü görən ilə gözü görməyən iki adamın Hicaz səfərinə çıxana bənzəyər. Hər ikisi də yol boyunca davamlı olaraq





İnsanın mənəvi səviyyəsi yüksəldikcə Allaha qarşı qorxu və təzim duyğuları da artar. Necə ki, insanlar içində Allahı tanımaq baxımından ən üst səviyyədə olan peyğəmbərlər və övliyaullah insanların ən günahkarlarından daha böyük xəcalət, acizlik və heçlik duyğuları içində Haqqa sığınmış, özlərini daim qüsurlu və naqis görərək peşmançılıq göz yaşlarıyla tövbə və istiğfar etmişlər.

məqsədlərinə yaxınlaşmaqdadırlar. Lakin gözü görməyənin savabı daha çoxdur. Seyri-sülükdə də kəşfi olmayan salik hər nə qədər görünməsə də davamlı tərəqqi halında olduğu üçün kəşfi açıq olandan daha karlıdır."[5]

Əbul-Həsən Haraqani həzrətləri də müridlərinə mənəvi təkamül üçün "xidməti" tövsiyə etmiş və:

"Ən böyük kəramət yorğunluq və bezginlik hiss etmədən Allahın məxluqatına xidmət etməkdir"[6] buyurmuşdur.

İmam Rəbbani həzrətləri buyurur:

"Etiqad və əmələ dair iki qanada sahib olduqdan sonra Allah-Təalanın lütf və yardımıyla təqva əhli kəslərin ali dərəcəli yoluna girmək lazımdır. Bu yola girməkdən məqsəd etiqad və əməl barəsində bildirilənlərə əlavə etmək və ya onların xaricində yeni bir şeyə nail olmaq deyil. Çünki belə bir şey ayaqların sürüşməsinə aparan əsl məqsəddən uzaq istəklərdir.

Təsəvvüfə girməkdən məqsəd etiqadın şəkk və şübhə ilə sarsılmaması üçün, yəqin və əminlik qazanmaqdır..."[7]

[Təsəvvüfi həyatdan məqsəd eşq ilə yaşanan iman, qəlb və bədən ahəngi içində ifa edilən bir ibadət, heyranlıq oyandıran gözəl bir əxlaq ilə, aram tapmış bir qəlb əldə edə bilməkdir. Beləcə, Allahın razı olacağı bir qula çevrilə bilməyin səyi içində olmaqdır. Bunların xaricində qalan bütün məqsədlər qulu əsl məqsədindən uzaqlaşdıran boş arzulardır.

Digər tərəfdən təsəvvüfü tərbiyədən layiqincə nəsib almış möminlərin inanc və saleh əməllərə daha möhkəm sarıldıqları, zülm və təzyiqlər qarşısında imanlarını daha çox mühafizə edə bildikləri tarixi bir həqiqət, danılmaz gerçəkdir.

Necə ki, uzun illər bir tərəfdən ateist və kommunist rejimlərin assimilyasiyasına, bir tərəfdən qlobal mədəniyyət erroziyasına, digər tərəfdən də geniş missioner fəaliyyətlərinə məruz qalan, başda Balkanlar, Qafqaz, Orta Asiya və Afrika ölkələri olmaq üzrə bir çox İslam cəmiyyətində müsəlman şəxsiyyətini qoruya bilməyi bacaranların daha çox təsəvvüf iqlimindən feyz almış möminlər olduğu görülmüşdür. Çünki təsəvvüfün məqsədi

ən şiddətli inancsızlıq və küfr fırtınaları qarşısında belə sarsılmayacaq dərəcədə qəlblərdəki imanı qüvvətləndirməkdir.

İmam Rəbbani həzrətləri buyurur:

"Dostlarıma daim söylədiyim və ömrümün sonuna qədər də söyləyəcəyim nəsihət: Əhli-Sünnə vəl-Cəmaata aid kəlam kitablarındakı məlumatlar istiqamətində inancını düzəltdikdən və fərz, vacib, sünnə, məndub, halal, haram, məkruh və şübhəli hökmlərdən edilməsi əmr olunanları etmək, tərk edilməsi əmr olunanlardan uzaqlaşdıqdan sonra qəlbi Haqq-Təaladan başqa şeylərlə məşğul olmaqdan qurtarmaqdır..."[8]

Haqq dostlarının ən çox üzərində dayandıqları xüsus qulluqda istiqamət üzrə sabitqədəm olmaqdır. Belə ki, istiqamət ən böyük kəramət sayılır. İstiqamətin təməli isə ilk növbədə Quran və Sünnə ölçülərinə görə etiqadı, yəni inancı düzəltmək, sonra isə haram və şübhəlilərdən çəkinmək və gözəl əxlaq ilə yaşayıb saleh əməllərə davam etməkdir.

Haqq-Təalanın biz qullarından istədiyi "qəlbi-səlim"ə nail ola bilmək, yəni tərtəmiz və paklanmış bir könüllə Haqqın hüzuruna dura bilmək də yalnız zahiri və batini qulluq vəzifələrimizi ixlasla ifa etməmizə bağlıdır. Bu xüsuslarda əlimizdən gələn səyi göstərməliyik ki, qəlbimiz Allahdan başqasına meyl etməsin, Haqqın zikriylə aram tapsın və sükunətə qovuşsun…

Düşünməliyik ki, Haqq-Təala:

"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!" (Qaf, 16) buyurur.

Həqiqətən, insanın qəlbindən keçənlər özündən başqa bütün varlıqlar üçün sirdir, yalnız Allaha məlumdur. Məhz həyatı bu həqiqətin aydınlığında yaşaya bilmək lazımdır. Hal və davranışlarımız qədər hissiyyatımızı və fikriyyatımızı da Haqq-Təalanın rizasıyla birləşdirib qəlbimizi Allahdan başqasıyla məşğul olmaqdan xilas etməyə çalışmalıyıq.

İmam Rəbbani həzrətləri buyurur:

"Xeyirli bir iş gördüyüm zaman mütləq özümü qüsurlu bilib, məzəmmət edirəm. Hətta nəfsimi ittiham edib, özümü sağ tərəfimdəki mələyin yaza biləcəyi xeyirli bir əməl işləməmiş olaraq görmədən rahatlıq tapa bilmirəm. Sağ çiynimdəki dəftərin bomboş olduğuna, onu yazan mələklərin boş-boşuna gözlədiklərinə inanıram. Bu halımla Haqqın rizasını necə əldə edə bilərəm?!

Onu da bilirəm ki, bu aləmdəki hər kəs bir çox cəhətdən məndən üstündür. Hamısının ən şərlisi mənəm!"[9]

İnsanın mənəvi səviyyəsi yüksəldikcə Allaha qarşı qorxu və təzim duyğusu da artar. Necə ki, insanlar içində Allahı tanımaq baxımından ən üst səviyyədə olan peyğəmbərlər və övliyaullah insanların ən günahkarlarından daha böyük xəcalət, acizlik və heçlik duyğuları içində Haqqa

sığınmış, özlərini daim qüsurlu və naqis görərək peşmançılıq göz yaşlarıyla tövbə və istiğfar etmişlər.

Həzrət İbrahim عليه السلام Allah üçün malından, canından və övladından fədakarlıq edərək bu imtahanlardan keçdi. Könlündəki fani taxtları yıxdı. Bütpərəst bir qövmə qarşı ağır tövhid mücadiləsi apardı. Göstərdiyi sevgi, sədaqət və təslimiyyətlə Xəlilullah oldu, Haqqın dostluğuna yüksəldi. Lakin İbrahim عليه السلام Haqq dərgahındakı bu ülvi mərtəbəsinə baxmayaraq, əzəməti-ilahiyyə qarşısında hiss etdiyi heçlik, acizlik və qorxu halını sərgiləyirmiş kimi belə dua etmişdir:

"(İnsanların qəbirlərindən çıxardılıb) dirildəcəyi gün (qiyamət günü) məni zəlil (rüsvay) etmə!" (əş-Şuəra, 87)

Şübhəsiz ki, peyğəmbərlərdə, övliyaullahda və saleh möminlərdə müşahidə edilən bu qorxu və ürpəriş halı onların Haqqa yaxınlıqlarının və mərifətullahdakı yüksək səviyyələrinin bir göstəricisidir.

Zira ayeyi-kərimədə buyurulur:

"...Allahdan Öz bəndələri içərisində ancaq alimlər (layiqincə) qorxar..." (əl-Fatir, 28) Buradakı alimlikdən məqsəd Allahı tanımaqdır, Onun qüdrət və əzəmətinin ucalığını, buna müqabil öz heçliyini idrak etməkdir, yəni mərifətullahdır.

Uca Rəbbimiz belə bir qorxu duygusu içində ibadət edən saleh qullarının halını Qurani-Kərimində bəyan edir:

"Ürəkləri Rəbbinin hüzuruna qayıdacaqlarından qorxuya düşüb verməli olduqlarını (zəkatı, sədəqəni) verənlər, məhz onlar yaxşı işlər görməyə tələsər (bir-biri ilə yarışar) və bu işlərdə (başqalarından) öndə gedərlər. (əl-Muminun, 60-61).

Həzrət Aişə validəmiz buyurur:

"Bu ayeyi-kərimələr nazil olanda Allah Rəsulundan soruşdum:

"Ayədə zikr edilənlər zina, oğurluq və içki kimi haramları işləyənlərdir?".

Allah Rəsulu ﷺ də:

"Xeyr, ey Siddiqin qızı! Ayədə bildirilmək istənənlər namaz qıldığı, oruc tutduğu və sədəqə verdiyi halda bu ibadətlərinin qəbul edilib-edilməyəcəyi təlaşı ilə qorxanlardır",- buyurdu." (Tirmizi, Təfsir, 23/3175; İbn Macə, Zöhd, 20)

Necə ki, Allahın vəli qulları, arif və saleh şəxslər könüllərini təlaşa salan bu narahatlıq səbəbiylə Allaha belə dua etmişlər:

سُبْحَانَكَ مَا عَرَفْنَاكَ حَقَّ مَعْرِفَتِكَ وَمَا عَبَدْنَاكَ حَقَّ عِبَادَتِكَ

"Allahım! Səni bütün nöqsan sifətlərdən tənzih edirəm! Səni layiqincə tanıya bilmədik, Sənə layiqincə qulluq edə bilmədik!.."

Yəni qafil qullar ən böyük günahları səbəbiylə belə kiçicik bir qorxu hissi keçirmədikləri halda arif qullar ilahi qüdrət və əzəmət təcəllilərinin özlərini sövq etdiyi xaşyətullah halı səbəbiylə, saleh əməllərinin də qəbul olunub-olunmayacağı xüsusunda böyük bir narahatlıq içində yaşayarlar.

Həmçinin **Həzrət Əli** ﷺ da:

"İşlədiyiniz saleh əməllərə göstərdiyiniz əhəmiyyətdən daha çox onun qəbuluna və qorunmasına göstərin",- deyə buyurmuşdur.

Yəni saleh əmələri işləməklə iş bitmiş olmaz. Onu nə qədər ixlasla həyata keçirdiyimizə də diqqət etməli, onun əcrini yox etməmək üçün riya, göstəriş, təkəbbür və lovğalıq kimi çirkin xüsusiyyətlərdən ehtiyatla çəkinməliyik.

Məhz təsəvvüfi tərbiyənin ən mühüm məqsədlərindən biri də "xof və rəca" (qorxu və ümid) tarazlığı içində könüllərə bu həssaslığı qazandırmaqdır.

Bunun üçün Haqq dostları mənəviyyat səmasının ulduzları mövqeyində olmalarına baxmayaraq özlərini daim ən aşağıda və hamıdan geridə görərlər. Beləcə, əməllərinə və gözəl hallarına güvənmək qəflətindən qorunarlar. Əbədi qurtuluşları üçün yalnız Allahın rəhmət və bağışlamasını ümid etmə ədəbinə bürünərlər.

Necə ki, **İmam Rəbbani həzrətləri** də məktub yazdığı tələbələrindən son nəfəsini hüsni-xatimə ilə, yəni imanla verə bilməsi üçün dualar istəmişdir. Oğluna göndərdiyi bir məktubunda belə buyurur:

"Uşaqlara mərhəmət edin və onları Quran oxumağa təşviq edin! Üzərimizdə haqqı olan kəsləri bizim adımıza razı edin! İmanla köçə bilməyimiz üçün dua edərək bizə yardımçı olun!"[10]

Son nəfəsi iman ilə verə bilmək xüsusundakı bu könül həssaslığı və qul-

"Kəşf sahibi salik ilə kəşfi bağlı salikin halı gözü görən ilə gözü görməyən iki adamın Hicaz səfərinə çıxana bənzəyər. Hər ikisi də yol boyunca davamlı olaraq məqsədlərinə yaxınlaşmaqdadırlar. Lakin gözü görməyənin savabı daha çoxdur. Seyri-sülükdə də kəşfi olmayan salik hər nə qədər görünməsə də davamlı tərəqqi halında olduğu üçün kəşfi açıq olandan daha karlıdır."

luq ədəbi bütün Haqq dostlarının ortaq xüsusiyyətidir. Bu iman həssaslığını hamımızın nümunə götürməsi lazımdır. Biz də bu baxımdan:

تَوَفَّنِى مُسْلِمًا وَأَلْحِقْنِى بِالصَّالِحِينَ

"...(Ey Rəbbim!) **Məni müsəlman olaraq öldür və məni salehlərin arasına daxil et!"** (Yusuf, 101) ayeyi-kəriməsini dualarımızdan əskik etməməliyik.



Peyğəmbərlər və onların müjdələdiyi bəndələr müstəsna, heç kimin son nəfəsini imanla verə biləcəyinə dair bir təminatı yoxdur. Bu hadisələr qeyd etdiyimiz həqiqətə nə qədər ibrətli misaldır:

Haqq dostlarından **Süfyan Sevri həzrətləri**nin gənc yaşda beli bükülmüşdü. Səbəbini soruşanlara belə deyərdi:

"Elm öyrəndiyim bir ustadım vardı. Vəfat edərkən ona təlqin verdiyim halda heç cür kəlmeyi-tövhidi söyləyə bilmədi. Məhz bu halı görmək mənim belimi bükdü".

Yenə Haqq dostlarından **Əbu Bəkr Vərraq həzrətləri** vəfat etdikdən sonra bir nəfər onu yuxusunda görür. Həzrətin bənizi saralmış, dərdli-dərdli ağlayırdı. Belə olduğunu görüb:

"Ya şeyx! Bu nə haldır?",- deyə soruşur.

Həzrət hüznünün səbəbini ifadə mahiyyətində bu dəhşətli cavabı verir:

"Qonşu qəbirlərə on cənazə gətirdilər, lakin aralarında bir dənə də olsun müsəlman yoxdur!.."

Haqq-Təala hər birimizə son nəfəsdə bu dünyadan imanla köçməyi qismət etsin. Bütün ömrünü ilahi riza istiqamətində yaşayıb, son nəfəsdə əbədi vüslət sevinci yaşayan bəxtiyar qullarının zümrəsinə ilhaq eyləsin.

Amin!..

---

1. İmam Rəbbani, *Məktubat*, II, 174, № 266.
2. Bax. əl-Əraf, 175-176.
3. Bax. Əttar, *Təzkirətul-Övliya,* s. 217, İlim ve Kültür Yayınları, Bursa 1984.
4. Bax. Əli əl-Müttəqi, *Kənzul-Ummal,* XI, 549/32578; İbn Macə, *Müqəddimə*, 11/106; Əhməd, I, 127, II, 26.
5. Prof. Dr. Hasan Kamil Yılmaz, *Altın Silsile,* s. 208.
6. *Nameyi-Danişvərani-Nasiri,* I, 297.
7. İmam Rəbbani, *Məktubat*, II, 174, № 266.
8. İmam Rəbbani, *Məktubat*, II, 235, № 278.
9. İmam Rəbbani, *Məktubat*, I, 118, № 11.
10. İmam Rəbbani, *Məktubat*, III, 169, № 2.

QURBANIN XATIRLATDIQLARI...

Əziz qardaşlarımız, Qurban bayramı ərəfəsində qısaca olaraq bir neçə məsələni xatırlatmaq istəyirik:

İlk növbədə, bunu ifadə edək ki, şərtləri qurban kəsməyə əlverişli olan müsəlmanların müəyyən vəsflərə malik olan heyvanları kəsmələri qurban ibadəti adlanır. Qurban yalnız zahiri, cismanı və şəkli ibadət deyil. Bütün fiqhi şərtlərinə riayət etmək son dərəcə zəruri olmaqla yanaşı, qurbanın əsl məna iqlimindən də qafil olmamaq lazımdır.

Allah-Təala kəsilən cismanı qurbanların daşıdığı mənaya vurğu edərək bizdən də hər şeyimizi öz rizası yolunda qurban edə biləcəyimizə dair niyyət sahibi olmağı istəyir. Ona görə də qurban vasitəsilə təfəkürümüzü, xüsusilə:

"Allah möminlərin canlarını və mallarını onlara veriləcək cənnət qarşılığında satın almışdır". (ət-Tövbə, 111) ayəsi üzərində artırmalıyıq. Canımızla, malımızla, bütün imkanlarımızla Haqqa nə qədər ram ola bildiyimizi götür-qoy etməliyik.

Allahın lütf etdiyi nemətlərin şükrünü nə qədər ifa edə bildiyimizi düşünməliyik? Əlimizdəki imkan və nemətləri Haqqa yaxınlığımızı artırmaq üçün vasitəyə çevirə bilirikmi? Yoxsa bu nemətlər Allahla aramızda pərdə olur?

Maldan və candan fədakarlıq mənası daşıyan qurbanın əsl qayəsi Allaha təqərrübdür, yaxınlaşmaqdır. Qurban bu cəhəti ilə Allaha yaxın olmaq və Onun dostluğuna qovuşmaq üçün göstəriləcək fədakarlığın simvolik ifadəsidir…

Qurban vəsiləsi ilə onu da düşünməliyik ki, Allah-Təala bizi kəsiləcək qurbanlıq kimi də dünyaya göndərə, insanlar da bizi qurban edə bilərdilər. Bu etibarla kəsilən qurbanlara Xaliqin şəfqət və mərhəmət nəzəriylə nə qədər baxa bildiyimizi də gözdən keçirməliyik.

Mərhum **Sami Əfəndi** və **Musa Əfəndi** qurban kəsərkən həddən artıq həssaslıq göstərərdilər. Bir çuxura iki qurban kəsdirməzdilər. Heyvanı kəsiləcəyi yerə itələyərək, sürükləyərək aparmağa icazə verməzdilər. Əgər kiçikbaş heyvandırsa, qucağa alınıb şəfqət və mərhəmətlə aparılmasını istəyərdilər. Qurbanı kəsəcək bıçağın iti olmasına və heyvanın gözü qabağında itilənməməsinə diqqət edərdilər. Qurbanın gözünü bağladar, heyvana əziyyət verilməyəcək şəkildə kəsilməsini və qanın yaxşıca boşalmasını arzu edərdilər. Qurban kəsilərkən oturmaz, heyvanın qanı tamamən axana qədər dərin bir ibadət vəcdi içində, təzim və hörmət hissi ilə, ədəblə ayaqüstə gözləyərdilər. Bununla da digər ibadətlər kimi qurbanın da təfəkkür və məna cəhəti yüksək bir ibadət olduğunu, bu ibadəti

Məhz İbrahim ﷺ da oğlu İsmayılı ﷺ Allah üçün qurban etməklə əmr olunaraq imtahanların ən ağırı ilə sınağa çəkildi. Özünün və oğlu İsmayılın misli görülməmiş riza və təslimiyyətinin bu dünyadakı mükafatı olaraq Allah-Təala onlara mələklər vasitəsilə qurbanlıq qoç göndərdi. Onların bu fədakarlıq xatirələri qiyamətə qədər davam edəcək bütün iman nəslinə bir ibadət olaraq hədiyyə edildi.



böyük bir hörmət və ədəblə ifa etməyin lüzumunu bizə təlqin edərdilər.

Ayeyi-kərimədə buyurulur:

"Hər kim Allahın ayələrinə (nişanələrinə) hörmət göstərərsə, heç şübhəsiz ki, bu, qəlblərin təqvasındandır". (əl-Həcc, 32)

Qurani-Kərim kimi, Kəbeyi-Müəəzzəmə kimi, azan kimi qurban da Allahın nişanələrindəndir. Nəticə etibarilə qurban xüsusunda göstəriləcək ədəb və həssaslıq Allaha qarşı təqva hissimizin bir göstəricisidir. Allah-Təala da qurbanın əti və qanına yox, bu ibadət vasitəsilə Ona ərz edəcəyimiz dua, qulluq və təqvamıza dəyər verir. Yəni qurbandan məqsəd təqva imtahanından keçə bilmək, Haqqa itaət və təslimiyyətimizi təsdiqləməkdir.

Ayeyi-kərimədə qurbanlar haqqında belə buyurulur:

"Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir)." (əl-Həcc, 37)

Həzrət Mövlana da bu həqiqətdən qafil qalmamaq üçün *"Keçinin kölgəsini qurban etmə!"*,- deyə xəbərdarlıq edir. Yəni qurbanın həqiqətinə çat, onu ət bayramı zənn etmə. Çünki Haqq-Təala kəsilən qurbanlar vasitəsilə bizim qulluqdakı səmimiyyətimizi sınağa çəkir. Ona məhəbbətimizi, itaət, təslimiyyət, fədakarlıq və sədaqətimizi imtahan edir.

Həzrət İbrahimin عليه السلام əziz xatirəsi olan qurban ibadəti hər şeydən əvvəl qəlbləri Allah üçün fədakarlıq duyğusunun təfəkküründə dərinləşdirməlidir. Həqiqətən İbrahim عليه السلام çox çətin imtahanlarla sınağa çəkildi. Allahın lütfü ilə bütün bu imtahanlardan keçərək Haqqa **"xəlil / dost"** oldu. Kasıblıqdan qorxmadan bütün malını infaq etdi, bütpərəst qövmə qarşı apardığı mücadiləsində heç bir tərəddüd göstərmədən Nəmrudun atəşinə atıldı. Beləliklə lazım gəldikdə canını da Rəbbinə təslim edə biləcəyini sübut etdi. İnsan oğlu üçün ən ağır imtahanlardan biri olan övlad xüsusunda da Haqqa itaət və təslimiyyət abidəsi oldu.

Həqiqətən, nəslin davam etməsinə səbəb təşkil edən övladlar bir növ insan fitrətində gizli olan əbədilik arzusunun dünya şərtlərində tətmin vasitəsidir. Ona görə də insanoğlu övladına çox düşkündür. Övlad ata-ananın davam edən parçasıdır.

Məhz **İbrahim** عليه السلام da oğlu **İsmayılı** عليه السلام Allah üçün qurban etməklə, əmr olunaraq imtahanların ən ağırı ilə sınağa çəkildi. Özünün və oğlu İsmayılın misli görülməmiş riza və təslimiyyətinin bu dünyadakı mükafatı olaraq Allah-Təala

onlara mələklər vasitəsilə qurbanlıq qoç göndərdi. Onların bu fədakarlıq xatirələri qiyamətə qədər davam edəcək bütün iman nəslinə bir ibadət olaraq hədiyyə edildi.

Bu nöqteyi-nəzərlə qurbandan əsl məqsəd lazım gəldikdə bəndənin Haqq yolunda canından belə fədakarlıq göstərəcəyinə dair Rəbbinə söz verməsidir.

Həcc ibadəti də Həzrət İbrahim عليه السلام və oğlu İsmayılın عليه السلام Allaha sədaqət, itaət və təslimiyyətlərinin bir ibadət rüknü halına gətirilərək qiyamətə qədər bütün möminlərə müstəsna bir təlim və təlqin vəsiləsi qılınmışdır.

Həccin hər bir rüknü hikmətlərlə doludur. Məsələn, şeytan daşlamaq… Həzrət İbrahim və Həzrət İsmayılın özlərini Allahın əmrinə itaətdən yayındırmağa çalışan şeytanı daşlamalarının xatirəsi olan bu hadisə sırf həcc ibadətinə məxsus qalmamalıdır. Hər anı ilahi imtahanlarla dolu olan ömrümüzün heç bir mərhələsində şeytan daşlama xislətini itirməməliyik.

"أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطَانِ الرَّجِيم : Daşlanaraq qovulmuş olan şeytandan Allaha sığınıram" deməyi heç bir işimizdə yaddan çıxarmamalıyıq.

Qurani-Kərimdə İbrahim عليه السلام və oğlu İsmayılın عليه السلام Allah üçün sərgilədikləri fədakarlıqlarından xəbər verilməsi bizim bundan lazımi dərs və hikmətləri ala bilməyimiz üçündür.

Digər tərəfdən Qurban bayramı minlərlə sevinc və kədər təcəlliləriylə dolu olan bu imtahan aləmində Rəbbimizin biz qullarına lütf etdiyi sevinc günləridir. Bu sevinc günlərinə qovuşan möminin vəzifəsi:

Özünə bəxş edilən nemətlər üçün Rəbbinə şükür edib, bu nemətlərdən məhrum qalan din qardaşlarına yardım əli uzatmaq surətiylə "əməli şükür" etməkdir. Kimsəsizlərin, yoxsulların yanında olaraq, Allahın verdiyi imkanları bölüşərək

Həccin hər bir rüknü hikmətlərlə doludur. Məsələn, şeytan daşlamaq… Həzrət İbrahim və Həzrət İsmayılın özlərini Allahın əmrinə itaətdən yayındırmağa çalışan şeytanı daşlamalarının xatirəsi olan bu hadisə sırf həcc ibadətinə məxsus qalmamalıdır. Hər anı ilahi imtahanlarla dolu olan ömrümüzün heç bir mərhələsində şeytan daşlama xislətini itirməməliyik.

onların könüllərinə də bayram sevincini daddırmaqdır. Dünyanın dörd bir yanında zülm və vicdansızlığa məruz qalan və iztirab çəkən milyonlarla din qardaşını könül dərgahına qəbul etməkdir.

İsmayıl Ata həzrətlərinin bu ifadələri kamil möminin könül həssaslığını necə də gözəl ifadə edir:

"Günəşli gündə kölgə, soyuqda arxalıq, aclıqda çörək ol!.."

Qurban bayramı bu cəhəti ilə də bizə ən çox **infaq** fəzilətini xatırladan bir bayramdır. Hansı ki, bu infaqdan iki cür istifadə etmək mümkündür:

Birincisi; kasıb, qərib və yoxsul qardaşlarımıza ziyafət verilməsi, ikincisi isə; din qardaşlığının gücləndirilməsidir.

Din qardaşlığı hər zaman bizə fərzdir. Unutmayaq ki, heç bir kölgənin olmayacağı qiyamət günündə Ərşi-Əlanın kölgəsi altında himayə olunacaq yeddi qrup insandan biri də, xüsusilə, çətin zamanlarda Allah üçün bir-birini sevərək qardaş olanlardır (bax. Buxari, Riqaq, 24).

Allah-Təala yer üzündə zülmə, çilələrə, aclıq və yoxsulluğa məruz qalan milyonlarla din qardaşımızın yaşadığı bu günlərdə hər birimizə İslam qardaşlığı imtahanlarından ağ üzlə çıxa bilməyi nəsib etsin…

Amin!..

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

“FATİHƏ” SURƏSİ

“Fatihə” surəsi yeddi ayədir və Məkkədə nazil olmuşdur. Qurani-Kərimə bu surə ilə başlandığı üçün “əl-Fatihə” (Kitabı açan) ad verilmişdir. İlk dəfə nazil olmasa da, tərtib etibarilə Quranın ilk surəsidir.

“Fatihə” qısa və yığcam olmasına baxmayaraq, Qurani-Kərimin bütün mənalarını ehtiva edir və xülasə olaraq, onun əsas məqsədlərini özündə əks etdirir. Dinin əsaslarını və təfərrüatlarını içinə alır. Etiqad, ibadət və muamələt, axirətə və Allahın gözəl sifətlərinə iman gətirməyi, yalnız Ona ibadət etmə, Ondan kömək diləmə və Ona dua etməyi, imanda və salehlərin yolunu tutmada sabit qılması, qəzəbə uğramışların və sapmışların yolundan çəkindirməsi üçün Ona yalvarmağı ehtiva edir. Ayrıca bu surədə keçmiş qövmlərə dair xəbərlər, bəxtiyar insanların yüksələcəyi mövqeləri, bədbəxt kəslərin düşəcəyi pis vəziyyətlər haqqında məlumat vardır. Yenə bu surədə Allahın əmrinə uyma, nəhyindən çəkinməkdən bəhs edilir. Bunların xaricində, bu surədə daha çox məqsəd və hədəflər vardır. “Fatihə” surəsi digər surələrin əsli kimidir. Bundan ötəri buna “Ümmül-Kitab” (Kitabın anası) da deyilir. Çünki bu surə kitabın əsas məqsədlərini özündə toplamışdır. “Fatihə” surəsinin bir çox adları vardır: əl-Vəfiyyə, ət-Tövhid, əl-Kafiyə, əl-Həmd, əş-Şükr, əş-Şafiyə, əş-Şəfa, əl-Kənz, əd-Dua, əl-Əsas, Səb’ül-məsani, Ümmül-Quran, Ümmül-Kitab.

Əhməd b. Hənbəl “Müsnəd” adlı əsərində rəvayət etdiyinə görə, Übeyy b. Kab, “Fatihə” surəsini Rəsulullaha (s.ə.s.) oxumuş, bunun üzərinə Rəsulullah (s.ə.s.) belə buyurmuşdur: *“Nəfsimi qüdrət əlində tutan Allaha and olsun ki, bu oxuduğunun bir bənzəri nə Tövratda, nə İncildə, nə Zəburda və nə də Furqanda (Quranda) endirilməmişdir. O, səbul-məsani (təkrarlanan yeddi ayə) və mənə verilən uca Qurandır”* (Kutubu Sittə, 2/438).

“Peyğəmbərimizin (s.ə.s.) səhabələrindən bir qrup bir bədəvi qəbiləsinə rast gəldilər. Bu qəbilə xalqı səhabələri qonaq etmədilər. O arada qəbilənin rəisini ilan sancdı. Bunun üzərinə qəbilə sakinləri səhabələrin yanına gələrək: “Sizdə bir dərman və ya müalicə edən kimsə varmı?”- deyə onlardan kömək istədilər. Səhabələr də: “Bəli, amma siz bizi qonaq belə etmədiniz. Bizə bir şey vermədikcə, sizə kömək etməyəcəyik”- dedilər. Bunun

“Fatihə” qısa və yığcam olmasına baxmayaraq, Qurani-Kərimin bütün mənalarını ehtiva edir və xülasə olaraq, onun əsas məqsədlərini özündə əks etdirir. Dinin əsaslarını və təfərrüatlarını içinə alır. Etiqad, ibadət və muamələt, axirətə və Allahın gözəl sifətlərinə iman gətirməyi, yalnız Ona ibadət etmə, Ondan kömək diləmə və Ona dua etməyi, imanda və salehlərin yolunu tutmada sabit qılması, qəzəbə uğramışların və sapmışların yolundan çəkindirməsi üçün Ona yalvarmağı ehtiva edir.

üzərinə qəbilə sakinləri səhabəyə bir neçə qoyun hazırladılar. Sonra bizdən biri xəstə üstünə “Fatihə” surəsini oxumağa başladı. Adam sanki özünə heç bir olmamış kimi dərhal ayağa qalxdı. Oradan ayrıldıqdan sonra Peyğambərimizə (s.ə.s.) çatana qədər buna dəyməyək dedik. Sonra Peyğambərimizə (s.ə.s.) gəldik və hadisəni ona danışdıq. Nəbi (s.ə.s.) “*Oxunana “Fatihə”nın şəfa olduğunu haradan bilirsiniz?*”- dedi, sonra da: “*Yeyin və mənə də bir pay ayırın*”- deyə buyurdu (Buxari, İcarə, 16; Müslim, Salam, 65).

İbn Abbas (r.a) rəvayət edir: “Hz. Peyğəmbər (s.ə.s) yanında Cəbrayıl (ə.s) olduğu bir vaxtda yuxarıda qapı səsinə bənzər bir səs eşitdi. Başını göyə doğru qaldırdı Cəbrayıl (ə.s.) dedi: “Budur göydən bir qapı açıldı, bu günə qədər belə bir qapı əsla açılmamışdı”. Oradan bir mələk endi Cəbrayıl (ə.s) təkrar: “*Ərzə bir mələk endi, indiyə qədər bu mələk heç enməmişdi*”. Mələk salam verdi və Peyğəmbərimizə (s.ə.s) dedi: “*Ya Rəsulallah! Sənə verilən iki nuru müjdələyirəm. Bunlar Səndən əvvəl başqa heç bir peyğəmbərə verilməmişdir. Onların biri “Fatihə” surəsi, digəri də “Bəqərə” surəsinin son qismidir. Onlardan oxuduğun hər hərfə müqabil sənə mütləq böyük savab veriləcəkdir*” (Müslim, Müsafirin 254; Nəsai, İftihah 25).

Allah-Təala (bir hədisi-qüdsidə) buyurdu: “*Mən qiraəti qulumla öz aramda böldüm, yarısı mənə aid, yarısı da quluma aiddir. Qul*: “***Əlhəmdülillahi Rabbil-aləmin*** *(Həmd olsun aləmlərin Rəbbinə aiddir)” oxuyanda, izzət və cəlal sahibi Allah: “Qulum mənə həmd etdi!”- deyəcək. Qul:* “***Ər-Rahmənirrahim***”*- oxuyunca, Allah: “Qulum mənə səna etdi”- deyəcək. Qul:* “***Maliki yəvmiddin*** *(Haqq-hesab (qiyamət) günün sahibinə)” deyəndə Allah: “Qulum məni böyük bildi”- deyəcək. Qul:* “***İyyakə nəbudu və iyyakə nəstəin*** *(Biz yalnız Sənə ibadət edirik, və yalnız Səndən kömək diləyirik)” deyincə, Allah: “Bu mənimlə qulum arasında bir əhddir , quluma istədiyini verdim”- deyəcək. Qul:* “***İhdinəs-sıratal-müstəqim. Sıratalləzinə ənamtə əleyhim ğayril-mağdubi aleyhim və ləd-dallin*** *(Bizi doğru yola yönəlt, nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və haqdan azmışların yoluna yox)” -dediyi zaman Allah: “Bu da qulumundur, quluma istədiyi verilmişdir”- deyə buyurar*” (Kutubu-Sittə, 8/2531).

Dr. Əhməd NİYAZOV
ahniyazov@hotmail.com

QURANDA BOŞANMA(MA)ĞA GEDƏN YOL

Hər şeydən əvvəl nikah, qadınla kişi arasında bağlanan elə bir əhd-peymandır ki, uca kitabımız Qurani-Kərim buna, "مِّيثَاقًا غَلِيظًا / **əhdedilmiş ağır bir söz**" demişdir. "Nisa" surəsində bu haqda deyilir: "*Siz onu (mehri) necə geri ala bilərsiniz ki, (vaxtilə) birbirinizlə yaxınlıq etmişdiniz və onlar (qadınlarınız) sizdən möhkəm əhd-peyman almışdılar*" (Nisa, 4/21).

Ayə hər iki tərəfin hansı şərtlər daxilində bir-biri ilə sözləşdiklərini xatırladaraq onlardan ailənin ictimai məsuliyyəti qarşısında aralarındakı nikahdan doğan hüquq və vəzifələrini təkrar götür-qoy etmələrini tələb edir. Çünki nikah çox böyük məsuliyyəti olan bir sözləşmədir. Məhz bu səbəblədir ki, nikah müqaviləsinin səbəbsiz, əsassız, quru bəhanələrlə və ya müvəqqəti problemlər kimi xırdaçılıqla xitam verilməsi Qurana qeyri-müvafiqdir.

Söz yox ki, cəmiyyətdə nikaha olan ehtiyac qədər davamiyyəti mümkünsüz olan ər-arvad münasibətinin də xitamı bəzən zərurətə çevrilir. Ancaq qeyd etmək lazımdır ki, bu hal birbaşa verilən qərar, dərhal müraciət edilən yol olmamalıdır. Ən axırıncı hədd olan boşanma, bir neçə mərhələdən sonra naçar qalan ər-arvadın seçdiyi çıxılmaz vəziyyət olmalıdır.

1. Nəsihət və gözəl rəftar

Ülvi dəyərlərin təməli olaraq davamiyyəti əsas təşkil edən yeganə qurum ailədir. Onun qorunması və möhkəm əsaslara bağlanması ictimai bir zərurətdir. O halda ata-ana arasındakı münasibət bu dəyərlərin inkişafına xidmət məqsədi daşımalı və kiçik-böyük hər bir işdə onun mənafeyini güdməlidir. Necə ki, evliliyin xoş güzəranını təmin üçün Quran, əvvəlcə kişiyə ailədə qadına yaxşı rəftar etməsini, xoşagəlməz hallarda isə səbirli və təmkinli olmağı tələb edir. Naxoş gördüyü bəzi şeylərin də xeyrə aparacağını ümid edərək

Allahdan nicat gözləməsini tövsiyyə edir. Bu haqda Qurani-Kərimdə deyilir:

"*Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun.*" (Nisa 4/19.) *(Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzsə) onlardan yatağınızı ayırın və döyün! Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!)* (Nisa, 4/34) "*Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb düzəlişmələrindən (ər-arvada) heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir. Ancaq nəfslərdə xəsislik (qısqanclıq) həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb (dava-dalaşdan, kobud rəftardan) çəkinsəniz (bu sizin üçün daha yaxşı olar). Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır!*" (Nisa, 4/128.)

2. Ağsaqqal məsləhəti

Giley-güzar artıb xoşbəxtlik pozulduğu təqdirdə ailə içi münasibətləri tənzimləmə yolları axtarmaq lazımdır. Təhlükənin eşiyində olsa da, nə qadın, nə də kişi belə bir vəziyyətdə boşanma yoluna getməməli, iki ağıl-kamal sahibi insanın məsləhətinə müraciət etməlidirlər. Bu haqda Quranda deyilir: "*(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır).* (Nisa, 4/35)

3. Qadın iddəni ərin evində gözləməli

Cidd-cəhdlər və səylərdən bir nəticə hasil olmadığı təqdirdə işin son mərhələsi olaraq boşanmaq mümkündür. Quranda deyilir: "*Əgər onlar (ər-arvad) bir-birindən ayrılacaq olsalar, Allah onların hər birini Öz geniş lütfü (kərəmi) ilə ehtiyacsız edər. Həqiqətən, Allah geniş lütf sahibi, hikmət sahibidir!*" (Nisa, 4/130.)

Ancaq uca Allah ailənin dağılmaması baxımından boşanmış da olsalar qadına öz iddəsini (3 ay) ərinin evində gözləmə hüququ tanımaqla bu ərəfədə onların verdikləri ayrılıq qərarını təkrar götür-qoy etmə və peşmançılıq ehtimalında həmin xətadan dönmə imkanı vermişdir. Talaq surəsindı deyilir: "*Onları – açıq-aşkar bir pis iş (zina) etməyənə qədər – (gözləmə müddəti qurtarmamış) yaşadıqları evlərdən çıxartmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hədləridir. Allah müəyyən etdiyi hədləri aşan kimsə özünə zülm etmiş olar. Nə bilirsən, ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin (ərin ürəyinə yenidən zövcəsinin məhəbbətini salsın və onlar barışsınlar).*" (Talaq, 65/1.)

Söz yox ki, cəmiyyətdə nikaha olan ehtiyac qədər davamiyyəti mümkünsüz olan ər-arvad münasibətinin də xitamı bəzən zərurətə çevrilir. Ancaq qeyd etmək lazımdır ki, bu hal birbaşa verilən qərar, dərhal müraciət edilən yol olmamalıdır. Ən axırıncı hədd olan boşanma, bir neçə mərhələdən sonra naçar qalan ər-arvadın seçdiyi çıxılmaz vəziyyət olmalıdır.

Bütün bunlar göstərərir ki, İslamın əhəmiyyət verdiyi müqəddəs ailə ünsürü qadınla kişinin ömür boyu davam edəcəkləri niyyət və istiqamətdə qurulmuşdur. Sadalanan hökmlər də öz növbəsində əyani bir sübutdur ki, islam ailə anlayışı müasir dövrün ən böyük problemlərindən olan **dağılan ailələr** üçün köklü bir həll yolu təklif edir.

İRFAN MƏCLİSİ
Salih Zeki MERIÇ
salihzekimeric@yahoo.com

SOYUQ DİVARLAR ARXASINDAN...

Hər səhər mətbəəyə gələndə masamın üstündə müxtəlif ünvanlardan gələn məktublarla qarşılaşıram. İlk başda ara-sıra gələrdi məktublar. Arxası kəsilməyincə əksəriyyətinin cəzaçəkmə müəssisələrindən gələn məktublar olduğunun fərqinə vardım. Belə olunca mənim üçün fərqli bir məna ifadə etməyə başladı. Bu məktublar bir fəryadın xəbərçisi idi. Bir intizarın ricası idi. Bəzisi Adanadan, bəzisi Trabzondan, bəzisi də Diyarbakırdan yazılmışdı.

Cəzaçəkmə müəssisəsindən gələn məktublar olması fərqli məna ifadə edir. Çünki həbsxana ayrılıq, hüzn, həsrət deməkdir. Səbir deməkdir. Məktub yazmanın unudulduğu bu dövrdə ən mənalı halını alır məhkumun əlində. Həbsxana, məhkum, məktub, hamısı birbirini tamamlayan kəlmələrdir.

Yenə otağımdayam. Masamın üzərinə yığılmış məktubları oxuyuram. Hər sətirində ayrı həyat hekayələri, başqabaşqa dramlar, acılar, peşmanlıqlar, "kaş ki"lər var. Bir hüzn topası olur hər məktub. Kimisi uzun-uzadı bəhs edir dərdindən. Xəyallarını yazır. Oxuduğu kitabları sıralayır. Hansı kitabları oxumağın lüzumunu soruşur. Bir başqası həbsxanada ən çox olan şey "zaman"dır deyir. "Burada istədiyimiz qədər kitab oxaya bilərik"-deyə əlavə edir. "Mədrəseyi-Yusufiyyə"-deyir bir digəri. "Talehsiz bir hadisə nəticəsində beş ildir yatıram. Allahdan ümid kəsilməz" -deyir və iftira nəticəsində burada olduğunu ifadə edir. Hər birisinin səbəbi fərqlidir. Səbəb nə olursa-olsun hər şey qədər yazısı ətrafında meydana gəlir.

Məktubları oxuyarkən özümü həbsxanadakı insanların yerinə qoydum. Bir an dünyam alt-üst oldu. Duyğularım dəyişdi. Əlim titrədi. Mən olsam, necə yazardım belə bir məktubu? Necə başlayardım? Əksər məktub "Möhtərəm Səlahiyyətli" deyə başlayır. Bu məktubu sizə filan çəzaçəkmə müəssisəsindən yazıram. Bəziləri Mədrəseyi-Yusufiyyə deyə vəsfləndirir. Təbii ki, Yusif peyğəmbərlə ortaq bir qədəri yaşamanın təsəllisi vardır.

Bu məktublar bizə dəmir qapılar

arxasından həyata yapışmaq üçün uzanan bir əl kimidir. Onu tutacaq, həbsxananın kor quyularından çəkib çıxaracaq şəfqətli bir əli gözləyir.

Hər məktub həbsxana şəraitinin ağırlığın, acısını anlatır. Dibsiz bir yalnızlığın qorxunc girdablarını. Bir anlıq xətanın bir ömrə qurban getdiyini.

Hər məktubda təsadüfi vurulan həbsxana tərəfindən "Baxıldı" damğası var. Bir məhkum üçün nəyi dəyişdirir məktubunun görülməsi, görülməməsi. Hər anı dustaq deyilmi. Görən hər şeyi görmürmü? Kimi bilir o məktublar hansı qırıq duyğularla yazılır və hansı ümidlərlə verilir poçta.

Hər məktubda ortaq bir istəyi görürəm: cəzaçəkmə müəssisəsinə kitab istəyi. Bu istək xaricdə həyatın keşməkeşinə dalmış bizlərin dünyasının ortasına gəlib dikilir. Bir rica qanadlanır azadlığa. Kiçik bir rica. Bir kitab, bir jurnal deyir könül hüzuru üçün. Bəlkə, vicdan iztirabını sakitləşdirəcək bir çıxış yolu axtarır. Qurani-Kərim kitabı deyir, dua kitabı deyir. Soyuq divarlar arxasından fısıldayan məsum bir istək olur hər məktub.

**

Mən cəzaçəkmə müəssisəsinin şəraitini Muğla cəzakəçmə müəssisəsinə etdiyim ziyarətdən xatırlayıram. Müdirin otağına gedərkən uzun bir dəhlizdən keçdik. Hər şeyi soyuq gəldi. Divarlar, pəncərələr, dəmir qapılar. Müdir işinə görəmi nədir, qaşı çatılmış, sifəti qaşqabaqlı... Məgər həmişə belədirmi deyə daxildən düşündüm. Rahat deyil, yüzlərcə fərqli insanın fərqli günahından yatdığı bir mühiti idarə etmək.

Hər yandan sanki göy üzünə azadlıq göyərçinləri uçurdu. Yanıqlı bir türkü oxuyurdu biri. Bütün dərdlərini söyləyirdi sanki. İnsan qərib bir duyğuya qapılır. Tərifi çətin, çıxışı olmayan qarmaşıq duyğulara...

Yenə otağımdayam. Masamın üzərinə yığılmış məktubları oxuyuram. Hər sətirində ayrı həyat hekayələri, başqa-başqa dramlar, acılar, peşmanlıqlar, "kaş ki"lər var. Bir hüzn topası olur hər məktub. Kimisi uzun-uzadı bəhs edir dərdindən. Xəyallarını yazır. Oxuduğu kitabları sıralayır. Hansı kitabları oxumağın lüzumunu soruşur. Bir başqası həbsxanada ən çox olan şey "zaman"dır deyir.

Keçən gün kitab göndərdiyimiz bir qardaşımız, çox ehtimal ki, bunun altında qalmamaq üçün boncukdan hörülmüş üzərində «Maşallah» yazısı olan bir açarlıq göndərdi. Əl əməyi, göz nuru ilə açarlıq. Səy göstərilmiş. Səbir göstərmiş. Şam saqqızı, çoban ərmağanı demiş. Açarlığı əlimə aldım. Bir yalnızlığı, çarəsizliyi gördüm.

Mətbəəyə gələn bütün məktublara cavab verməyə çalışırıq. Məktublardan anlaşılan odur ki, kitabxanalarda kitablar yetərsizdir. Ən çox istənilən kitablar, elmihal kitabları. Kaş ki, daha çox imkan olsa da, çox kitab göndərə bilsək. Və daha çox insanın dörd divar arasındakı ümidlərinə şərik ola bilsək.

Bəzi məktublar təşəkkür mahiyyətli gəlir. Sizin göndərdiyiniz bu kitabı yaldaşlarla oxuduq deyirlər. Bir çoxu namaza başladı. Başqa palatalardan yoldaşlara da verdik. Çox bəyəndilər deyirlər.

Həyatını xaricdə, azadlıq nemətinin içində keçirən bizə çox şey düşür. Həbsdə yatan bir insanın günahı nə olursa-olsun bir şəfqət əlinə ehtiyacı olduğunu və onun cəmiyyətə təkrar qazandırılması labüdlüyünü unutmamaq gərəkdir.

Eldar KƏRİMOV
canyanar@yahoo.com

“Wi-fi yoxdur, bir-birinizlə danışın!”

Əslində bu mövzu haqqında bir yazı yazacağımı düşünməmişdim. Amma bu günlərdə bir-birimizi bir neçə ildir görmədiyimiz yoldaşlarla görüşüb çay süfrəsi ətrafında yarım saat oturduqdan sonra mütləq yazacağıma söz verdim. Mən hesab etmirəm ki, belə bir hadisə ilə sadəcə mən qarşılaşmışam. Yəqin ki, belə şeylərlə siz hər gün rastlaşırsınız. Amma nə çarə; düzəlmir ki, düzəlmir. Başıma gələn hadisəni sizə uzun-uzadı nəql etməyəcəyəm. Amma giriş xarakterli onu deyim ki, illərlə görüşmədiyimiz dost-tanışlarla görüşüb bir masa ətrafında təzəcə oturub hal-əhval almışdıq ki, demək olar ki, hər kəs telefonunu əlinə alıb wi-fi şifrəsini soraqlamağa başladı. Bir onu bilirəm ki, biz yarım saat içərisində ən çoxu beş cümlə qurmağa nail olduq. Hamı başını aşağı salıb öz gizli dünyasına dalmışdı. Bizə qarşımızdakı canlı insan və onun danışdıqları maraqlı deyildi. Telefonumuzdakı rəngli, amma quru şəkillər və ifadələr daha maraqlı idi sanki.

Uzun sözün qısası, üz-üzə oturub danışanlardan çox, üz-üzə oturub telefonlarını qurdalayanların sayı çoxalıb. Olduğumuz hər yerdə ofis, kafe, market, avtobus, metro və küçələrdə belə wi-fi axtarırıq. Hamı nə isə axtarır, kimdənsə bir xəbər gəlməsini gözləyir elə bil. Restoranda yemək sifariş vermədən wi-fi şifrəsi alınır xidmətçilərdən. Telefondakı yalançı profilli qəhramanlar insanları real həyatdakı insanlardan uzaqlaşdırır. Əslində orada heç nə yoxdur, sadəcə özümüzü aldadırıq. Bəlkə kimlərsə mənim profilimi bəyənib dostluq göndərib və mənim paylaşdığım statuslar kiminsə xoşuna gəlib bəyənib. Axı bunda nə var ki? Bəli, bunda çox şey var. Bunların ən başlıcası isə insanların insanlarla ünsiyyət və əlaqə problemlərinin olmasıdır. İnsanların real həyatda özlərini başqalarına sevdirə bilməməsidir. Bununla da on ilin başında foto-kamera obyektivləri qarşısında hər hansı bir maraqlı şəkli, və ya ondan-bundan oğurlanmış sözləri öz profilində paylaşmaqla başqalarının rəğbətini qazanmaq istəyirlər. Bəlkə də, gənclər arasındakı ictimai əlaqələrin for-

malaşması cəmiyyətimizin ən prioritet məsələlərindən biri olmalıdır. Uşaqlıqda ailəsi ilə normal ünsiyyəti olmayan bir insanın gələcəkdə qarşılaşacağı özünü-özündə gizlətmə sindiromu bundan artıq olmayacaq ki. Hələ bu hamısı deyil. Sizə öz müşahidələrimdən gəldiyim qənaətdən bir həqiqəti çatdırım ki, bu da uşaqlarla valideynlər arasındakı sıx və düzgün əlaqələrdir. Belə ki, uşaq səhərdən axşama kimi ata və anasını əllərində telefon nə iləsə məşğul olduqlarını görərsə, onda da o cihaza xüsusi maraq yaranır və özünü göyə qaldırıb yerə çırpır ki, ona mən də baxmalıyam. Bu səs-küyə dözə bilməyən dırnaqarası zavallı valideynlərdən biri, yəni zərif cinsin nümayəndəsi analar öz əllərindəki cihazı uşağa verməklə onu sakitləşdirirlər. Və bu sadəcə bir gün davam etmir. Bunun ardı-arası kəsilmir. Maraq çoxaldıqca valideynlər uşağın əlindən öz cihazlarını çətinliklə belə ala bilmirlər. Artıq vəziyyət elə bir həddə gəlib çatır ki, uşaq öz oyuncaqlarını deyil, telefonu qucaqlayıb yatır. Və bu minvalla ona keçi, xoruz şe

rini əzbərlətmək istəyən valideynlər onun cavabında "maral" mahnısının sözlərini eşidirlər. Çünki uşaq telefonda sadəcə onlara baxır və onları dinləyir. Kiçik yaşlardan başlayan telefon sevgisi özünü böyük yaşlarda daha çox büruzə verir. Belə ki, düşdüyü mühit və işlədiyi iş yerində insanlara ünsiyyət problemi yaşayan belə insanlar heç bir zaman həyatda müvəffəq ola bilməzlər. Həyatın hər zaman mavi ekranda göründüyü kimi rəngarəng olacağını düşünən bu yazıqlar, birdən dünyanın ağ-qara üzüylə qarşı-qarşıya qalır. Hər zaman öz duyğu və xəyalları ilə yaşayan insanlar o xəyalları real həyatda kerçəkləşdirə bilmədiyi zaman fəlakət qopur. İntiharların sayı çoxalır və əyləncəsiz əyləncələr baş alıb gedir. Burada bir şeyi də qeyd edim ki, duyğusallıq bəzi insanlarda içinə qapanma, insanlarla ünsiyyət qura bilməmək formasında özünü göstərir. Bu cür duyğusallıqda insan öz problemləri ilə maraqlanır. Allaha güvənərək ondan kömək istəməyi düşünmədiyi üçün özünü dünyada yalnız və çarəsiz hesab edir. Özünə qapanma insanlardan təcrid etmə, stressli olma, yas tutma və depressiyaya düşürür. Bu da cəmiyyətimizin problemi olan depressiyaya gətirib çıxarır. Bəli, bu da bizim sosial şəbəkələrlə sosiallaşmağın sosial problemləri.

Hər zaman öz duyğu və xəyalları ilə yaşayan insanlar o xəyalları real həyatda kerçəkləşdirə bilmədiyi zaman fəlakət qopur. İntiharların sayı çoxalır və əyləncəsiz əyləncələr baş alıb gedir. Burada bir şeyi də qeyd edim ki, duyğusallıq bəzi insanlarda içinə qapanma, insanlarla ünsiyyət qura bilməmək formasında özünü göstərir. Bu cür duyğusallıqda insan öz problemləri ilə maraqlanır. Allaha güvənərək ondan kömək istəməyi düşünmədiyi üçün özünü dünyada yalnız və çarəsiz hesab edir. Özünə qapanma insanlardan təcrid etmə, stressli olma, yas tutma və depressiyaya düşürür. Bu da cəmiyyətimizin problemi olan depressiyaya gətirib çıxarır. Bəli, bu da bizim sosial şəbəkələrlə sosiallaşmağın sosial problemlləri.

Məqaləmi Avropada böyük restoranların birində yazılan düşündürücü bir yazı ilə tamamlayıram. "Hörmətli müştərimiz! Burada wi-fi yoxdur. Zəhmət olmasa, bir-birinizlə danışın!"

Adem ŞAHİN
ameha0@hotmail.com

ƏMƏLİYYAT TƏƏSSÜRATLARI

1. Anadolu türkcəsində "evdəki hesab çarşıya uymaz" deyirlər. Hər biləndən də üstün biri olduğu kimi hər hesab edəndən də üstün biri (əl-Hasib) var. Qazaxıstandakı hesabın Türkiyəyə uymayacağını təyyarə ilə səfərimizdə "ətli qreçka" ikramından anlamalıydım. Planlamaşdırmadığım halda "gəlmişkən özümü həkimə göstərim, necə olsa vaxtım var" dediyim xəstəxanada özümü əməliyyat masasında gördüm.

2. Xəstəxananın bir yerində **"bizim birinci vəzifəmiz xəstəni yaşatmaqdır"** cümləsi yazılıb. Kamaz sürücüsünə səsimizi eşitdirmək üçün yüksək səslə hooop dediyimiz kimi bu sözün sahiblərinə və bu sözə inananlara da "hooop" demək lazımdır. Hər bir ölən xəstə üçün xəstəxana müdiriyyətindən soruşmaq lazımdır: "Niyə vəzifənizi yerinə yetirmisiniz? Öldürmək və yaşatmaq nə zamandan sizin əlinizdə? Bu söz tamamən Allahsızlıq qoxuyur. Bizim əl-Muhyi (yaşadan) və əl-Mumit (öldürən) Rəbbimiz var. Bu qədər bəsit və şirk ətri verən yazılardansa "İki nemət vardır ki, insanların çoxu qədrini bilməz: sağlamlıq və boş vaxt" və ya "Xalq içində mötəbər bir nəsnə yox dövlət kimi / olmaya dövlət cahanda bir nəfəs səhhət kimi" yazılsa daha yaxşı olmazdımı? Kökü olan bitkiyə ağac deyirlər, kökü olmayan bitki isə kötük olmuşdur. Meyvə verən, yaşıllığı olan bitki olmaq varkən (mömin), kökü ilə əlaqəsi kəsilmiş quru kötüklər (münafiq) olmağa can atmaq nədir? **"(Ya Peyğəmbər!) Sən onları gördükdə cüssələri (boy-buxunları, gözəllikləri) xoşuna gəlir, danışanda sözlərinə qulaq asırsan. Onlar, sanki (divara) söykədilmiş dirəklərdir (ruhsuz bədən, müqəvva kimidirlər)…"** (əl-Münafiqun, 4)

3. Həyat təslim olmaq və təslim almaq üzərində qurulmuşdur. Təyyarəyə minəndə pilota, avtobusa minəndə sürücüyə, qatara minəndə maşinistə, restorana girəndə aşpazın gigiyenasına və məharətinə təslim oluruq. Pilota təslim olan uçar, həkimə təslim olan şəfa tapar, ustada təslim olan öyrənər, aşpaza təslim olan doyar. Allaha və Rəsuluna təslim olan isə qurtular.

4. İslam, salamat, təslim eyni kökdən gəlmişdir. Xəstəxanalar və əməliyyat otaqları təslimiyyətin zirvədə yaşandığı

yerlərdir. Qurbanlıq heyvanlar kəsilməyə aparılarkən dirənir, qarşı çıxır. Əməliyyat otağına girən insan isə kəsilməyə dirənən heyvanla müqayisədə "quzu" kimi davranar. "Əməliyyatdan 8 saat əvvəl yeyib-içməyi kəs" deyərlər, başüstə deyərsən. "Əlini uzat" deyərlər, uzadarsan. "Qolunu aç" deyərlər, açarsan. Adını da bilmədiyin həkim, polis, müəllim, pilot, sürücü kimi onlarla insana sual-cavabsız təslim olub, itaət etdiyi halda, 99 gözəl ismin sahibinə təslim olmamaq ağıl sahiblərinin işi deyil. Adının başında prof, dr, mütəxəssis kimi sifətlərə sahib insanları dinləyib Hz. Peyğəmbəri (s.ə.s) eyni təslimiyyətlə dinləməmək, Qurana və Sünnəyə müttəhim kürsüsündə oturan günahkarı ittiham məntiqiylə tənqidlə yanaşmaq ən böyük ədəbsizlikdir.

5. Əməliyyat masası adından da göründüyü kimi ağırdır. Nə nikah masasına, nə də yemək masasına bənzəyir. Bəlkə, bəlkə qumar masasına bənzəyər. Əməliyyata girəcək bir insan yoldaşına, qohum-əqrəbasına hiss etdirmək istəməsə də, özünü ölüm gerçəyinə hər zamankından yaxın hiss edər. Əməliyyatdan əvvəl dünya bərbəzəyi, pul, üzük, gözlük, geyim çıxardılır, sadəcə mavi önlüklə qalırsınız. Mavi önlüyün yaxalığı olmaz, "mavi rəngli kəfən" də deyilə bilər. Xərəklə əməliyyat otağına aparırlar. Burada uşaq arabasında gəzdirilən uşağın təslimiyyəti ilə gedirsiniz. Əməliyyat otağının qapısına "girilməz" yazılıb. "Könüllü girilməz" desələr, daha doğru olardı hər halda.

6. Əməliyyat otağının tavanı göz qapaqlarından fərqlənmir. Göz qapaqlarının içində nə və kimlər varsa, onlar tavandan görünür. Mənə əməliyyat otağının tavanında nə gördüyünü söylə, sənə kim olduğunu deyim. Əməliyyatdan sonra nə qar, nə kir, nə də ayağa qalxmamaq namaza mane deyil. Rəbbimiz "nə halda olursan ol, səcdə et, qəbul edərəm",- deyir sanki.

Hər məlumat, hər söhbət, hər zikr, hər müsibət, hər xəstəlik, hər namaz və hər əməliyyat formatdır, format atmaqdır. Kompüterə atılan format bəzən çox yaxşı olur, bəzən də yenidən format atmaq lazım gəlir. İnsan gündə beş formatla (namaz) düzəlir. Hər imtahan yeni bir formatdır.

7. "İnformation" sözü ingilis dilində məlumat mənasına gəlir. Baş və son hecalar atıldıqda ortada format qalır. Hər məlumat, hər söhbət, hər zikr, hər müsibət, hər xəstəlik, hər namaz və hər əməliyyat formatdır, format atmaqdır. Kompüterə atılan format bəzən çox yaxşı olur, bəzən də yenidən format atmaq lazım gəlir. İnsan gündə beş formatla (namaz) düzəlir. Hər imtahan yeni bir formatdır.

8. 41 Yasin oxuyanlar, Orazgül Ana Məscidində (Qazaxıstan) bütün camaatın birlikdə dua etməsi, Əliabaddan (Azərbaycan) və Çimkənddən səmaya yüksələn duaların istiliyi, dostluğun, qardaşlığın və məhəbbətin ölkə sərhədlərinə sığmadığının nümunəsidir.

9. Xəstəxanadan evə buraxılmaq BƏRAT almaqdır. Xətəxana gecəsi riqqət, dua və sığınma yönü ilə min adi gecədən daha QƏDİRlidir. Xəstə ziyarətinə rəğbət (RƏQAİB) göstərmək lazımdır. Ziyarət edilən və hal-əhval tutulan xəstə sevincindən MERAC yaşayar. BAYRAM isə xəstəxanadan sağ-salamat çıxıb insanın sevdiklərinə qovuşmasıdır.

Son söz: Ağrıkəsici var, amma ölümkəsici yoxdur.

Dr. Alpay ƏHMƏD

SÜRÜCÜLƏRİMİZ VƏ PİYADALARIMIZ

Son vaxtlar mətbuatımızda (və ya xəbər saytlarımızda) tez-tez yol qəzalarında ölənlərlə bağlı verilən xəbərlər sanki döyüş yerindən itkilər barədə verilən xəbərləri xatırladır.

Piyadalar üçün nəzərdə tutulan iki gözlü işıqforun qırmızı işığı yanır, yoldan iki-bir, üç-bir maşınlar orta sürətlə ötüb keçirlər. Yanımdakı altmış-yetmiş yaş arasında olan bir arvad qırmızı işığa məhəl qoymadan yolu keçməyə cəhd edir. Yaxınlaşmaqda olan bir maşının qabağından tez keçir, dayanır yolun ortasında, gözləyir ki, o biri istiqamətdən gələn avtomobillər keçib gedəndən sonra tez o biri tərəfə çatsın. Vaz 2107, Mersedes və Opel markalı maşınları buraxıb nəhayət az qala qaça-qaça o biri səkiyə özünü yetirir. Yol qaydasını, qırmızı işıq qadağasını bilə-bilə pozan bu qadına nifrət etməyə bilmirəm. O qədər əsəbiləşirəm ki, həmin an ürəyimə şeytani arzu gəlir. "Ay bir səni maşın vuraydı, qaldırıb çırpaydı yerə". Əlbəttə, mən sadist-filan deyiləm və heç kimə lap qaydanı pozsalar belə qəza arzulamıram...

Günlərin birində qaydanı pozan bir qoca arvadı acıladım. Əlində zənbil bu dəfə yolun o biri üzündən qırmızı işığa, sürücülərin siqnallarına, söyüşlərinə fikir vermədən, üstəlik sırtıqcasına gülə-gülə özünü mən duran tərəfə yetirdi. Bu dəfə dözəmmədim, üstünə qışqırdım:

- Ay arvad, ayıb deyil sənə? Niyə qaydanı pozursan? Niyə gözləmirsən yaşıl yansın?

- A bala, evə tələsirəm e, - dedi.

- Nə tələsirsən, yalan danışırsan, - mən coşmuşdum, - iki dəqiqə gözləsən dünya dağılardı? Yazığın gəlmir sürücülərə? Sənə görə türməyə düşsünlər, axırda da polisə-məhkəməyə görə borc-xərc eləyib pul verib oradan çıxsınlar.

Arvad heç nə demədi, çıxıb getdi. Ürəyim soyudu, fikirləşdim ki, bu danlağım ona dərs olar, bir də belə eləməz.

Bəli, bizim piyadaların çoxu belədir, ictimai nəqliyyatdan hər gün istifadə edən, şəhərdə piyada gəzən bir adam kimi

bunu əminliklə deyirəm. Görür ki, qırmızı yanır, maşınlar da yavaş sürətlə gedir, deyir yox e, mütləq aralarından sivişib yolun o biri tərəfinə özümü çatdırmalıyam. Cavanlı-qocalı, hətta yanında məktəbli, azyaşlı uşaqla gedən qadın da əlindən tutduğu uşağını sürüyə-sürüyə yolun o biri tərəfinə çatmağa tələsir. Nə oldu, bu millət elə küçəyə çıxanda, yol keçəndə mütləq tələsməlidir? Ay bivec, ay məsuliyyətsiz, iki dəqiqə səbir etməyə iradən yoxdur?!

Hollandiyanın Naymeqen şəhərində gördüyüm adi bir detalı sizə deyim. İşıqforun qırmızı işığı yanır, piyadalar qocalı-cavanlı gözləyirlər, yol isə tam boşdur, heç uzaqda bir maşın belə görünmür, amma adamlar səbirlə gözləyir, yaşıl işıq yanır, sonra keçirlər. Belə şeyi siz bizdə təsəvvür edə bilərsinizmi? Bizdə bu cür vəziyyətdə biri dayanıb yaşıl işığın yanmasını gözləsə, yolu keçənlərdən bir-ikisi çönüb həmin adama ürəyində "başı xarab olub e, maşın yoxdu, heykəl kimi dayanıb," - deyər. Nəysə, Hollandiyanı qoyaq qırağa...

Xətirlərinə dəysə də bunu deyəcəyəm, - bizdə sürücülərin əksəriyyəti piyadalarla münasibətdə qanacaqsızdır. Bir neçə fakt sadalayım. Məsələn, qırmızı işıq yanır, sürücü maşını piyadanın keçməli olduğu piyada zolağının ("zebranın"), yol xətlərinin üstünə sürür və saxlayır. İstəyirsən sürücüdən soruşasan ki, sən hara tələsirsən, bəyəm maşını "zebradan" iki metr arxada saxlasan, yaşıl yananda iki-üç saniyə gec sürsən yolu keçə bilməyəcəksən, benzinin qurtaracaq, ya motorun sönəcək? Və ya işıqforun olmadığı yerdə enli, maşınların tez-tez, sürətlə keçdiyi yolda "zebra"nın üstü ilə keçmək istəyən piyadaları vecinə almayan minlərlə sürücülərimiz var. Əksəriyyəti gözəl bilir ki, maşını saxlamaq, yolun qırağında dayanmış iki-üç piyadanı buraxmaq lazımdır. Maksimum uşaqlı ana olsa, qanacaqları çatacaq ki, əyləci bassınlar. Maşını saxlayanda da arxadakı bəzi qanacaqsız sürücülər siqnalı basacaq ki, niyə saxladın, sür də...

Buna bənzər başqa bir situasiya. Yaşıl işıq yanır, keçmək istəyəndə sol ya sağ tərəfdən gələn maşınlar üçün də yaşıl işıq yanır və sürücülərimizin əksəriyyətinin canı çıxır ki, dörd-beş saniyə dörd-beş piyadanın yolu keçməsini gözləsinlər, - sürürlər adamın üstünə, yəni qaça-qaça keç, mən sürüm gedim. Qaçmayanda da siqnal verir və acıqdan sifətlərində qeyri-insani ifadə yaranır.

Avropa ölkələrində adamların keçməsi üçün "zebranın" olub-olmamasından asılı olmayaraq, işıqforlar və yol keçidləri olan maşınların gur keçdikləri yollar istisna olmaqla, yaşından asılı olmayaraq kimsə yolun o biri tərəfinə keçmək istəyəndə sürücü əyləci basır, başı, ya əli ilə piyadaya gülərüzlə "keçin" işarəsi verir. Amma bir şey var ki, Avropada piyadalar yol keçidi varsa, zəhmət çəkib pilləkənlərlə yerin altına enirlər və ya yaşıl işıq yanandan sonra o biri tərəfə keçirlər. Üstəlik, Avropada piyadalar nəinki bizdəki kimi səki ola-ola maşın yolunun qırağı ilə, heç velosiped sürənlər üçün ayrıca çəkilmiş dar yolun üstü ilə belə getmirlər.

Səbəblər aydındır, - əksər hallarda səbəbsiz tələskənlik və eqoizm. Bir də sürücülər və piyadaların bir-birilərinə olan qarşılıqlı hörmətsizliyi. Bakıda yaşasaq da, etiraf edək ki, bu məsələdə əksəriyyətimiz mədəniyyətdən geri qalmışıq.

Çox istərdim ki, bu kiçik yazını piyadalarımız və sürücülərimiz oxusun.

P.S. Kobud ifadələrə görə oxuculardan üzr istəmirəm, məsələ burasındadır ki, bu məqaləni mən yazar kimi yox, hər gün yol gedən, yol keçən, avtobusa minən, belə şeyləri tez-tez görəndə əsəbiləşən bir piyada kimi yazdım.

Vüqar HƏSRƏTOV

SİQARETİN ZƏRƏRLƏRİ

Uca Allahın insanlara bəxş etdiyi nemətlərdən biri də sağlam bədən və ruhdur. Çünki dünya xoşbəxtliyinin əvvəli sağlamlıqdır. İnsanın sağlamlığı yerində olmazsa, həyatdan zövq almaz. Ona görə sağlamlığa zərərli olan vərdişlərdən və maddələrdən uzaq olmaq lazımdır. Dünyada və ölkəmizdə ən əhəmiyyətli problemlərdən biri də siqaret və onun zərərləridir. Siqaret insanları bir çox xəstəliklərə gətirib çıxarır. Dünyada və ölkəmizdə bir çox insanlar "ağciyər xərçəngi," "damar tutqunluğu," "nəfəs darlığı" və s. xəstləliklərdən əziyyət çəkirlər. Siz bu zərərli məhsuldan imtina etməklə ömrünüzü xeyli uzada bilərsiniz. Bu zaman özünüzü daha yaxşı hiss edəcəksiniz. Siqareti atsanız, ilk olaraq xərçəng xəstəliyinin yaranması ehtimalı aşağı düşür, qan təzyiqi 20 dəqiqə ərzində normal səviyyəyə çatır, bir gündən sonra infarkt keçirmə şansı azalır, bir ildən sonra isə ürək xəstəliklərinin inkişaf etməsi riski siqaret çəkən adamla müqayisədə yarıya enir. Ağ ciyər xərçəng xəstələrinin 95%-i siqaret çəkənlərdir.

Dünya səhiyyə təşkilatının məlumatına görə, dünyada 1 milyarddan çox insan siqaret aludəçisidir və hər il 4.5 milyon insan siqaretin törətdiyi xəstəliklərdən vəfat edir. Təxminən hər il dünyada 2.500.000 insan həyatını itirməkdədir. Ölkəmizdə isə hər il 100 min insan siqaretlə bağlı xəstəliklərin qurbanı olur. Bu ölümlərin əsas səbəbi ağciyər xərçəngidir, ikinci əhəmiyyətli səbəb ürək xəstəlikləri və digər xərçəng növləridir.

Siqaret çəkməyən insan çəkənin yanında olarsa, onun tüstüsünün çəkəndən çox çəkməyənə ziyanı var. Əgər valideyn övladının yanında gün ərzində bir-iki qutu siqaret çəkirsə, övladı da

beş-altı ədəd siqaret çəkmiş kimi olar. Bu da onun gələcəkdə siqaretə meyl etməsinə gətirib çıxarır. Siqaretin tüstüsündə 4000-ə qədər kimyəvi maddənin olduğu müəyyənləşdirilmişdir. Siqaretin tüstüsündəki elementlərin hər birinin insan orqanizminə ziyanı var. Bunlardan ən zərərlisi olan nikotin, qətran, karbon monoksid, (CO) və xərçəng yarada bilən maddələrdən ibarətdir. Məlumdur ki, gündə iki qutu siqaret çəkən insan çoxdur. Onların zəhərlənməməyinə səbəb siqaretə yavaş-yavaş öyrənmələridir. Siqareti yandırarkən onun nikotini havaya yayılır, yalnız müəyyən bir hissəsi orqanizminə keçir. Sadəcə bir siqaret çəkən insanın orqanizminə 1, 2-2 mq nikotin keçə bilir. Siqaretə yeni başlamış insanda ürək bulanma, baş gicəllənmə, qusma kimi hallar meydana gəlir. Bunun səbəbi də nikotinin mərkəzi sinir sisteminə təsiridir. Nikotin qan təzyiqini yüksəldir və qanın daha tez laxtalanmasına səbəb olur. Siqaret üzündən ortaya çıxan yüksək qan təzyiqi böyrəklərə böyük ziyan vurur. Siqaret çəkən qadınlarda isə uşaqlıq (uterus) xərçəngi risqi çoxalmaqdadır. Hamilə qadınların siqaret çəkməsi isə şikəst və ölü uşaqların doğulmasına gətirib çıxarır. Siqareti nə qədər tez tərgitsək, bədənimiz xəstəliklərə o qədər tez qalib gələcək. Siqareti tərgitdikdə insan bədəni inkişafa başlayır və 10 il ərzində siqaret çəkməmiş kimi hala gəlir.

Siqaret haqqında aşağıdakı satatistik məlumatlar maraqlı ola bilər:

1. Bundan artığı ola bilməz.

Harvard Universiteti tərəfindən aparılan tədqiqatlar göstərmişdir ki, 1997-ci ildən 2005-ci ilə qədər müddətdə siqaretin tərkibindəki nikotinin miqdarı 11% artmışdır.

2. Səhiyyə nazirliyi xəbərdarlıq edir.

1970-ci ildə prezident Nikson siqaret reklamını və satışını qadağan etmişdir.

Dünya səhiyyə təşkilatının məlumatına görə, dünyada 1 milyarddan çox insan siqaret aludəçisidir və hər il 4.5 milyon insan siqaretin törətdiyi xəstəliklərdən vəfat edir. Təxminən hər il dünyada 2.500.000 insan həyatını itirməkdədir. Ölkəmizdə isə hər il 100 min insan siqaretlə bağlı xəstəliklərin qurbanı olur. Bu ölümlərin əsas səbəbi ağciyər xərçəngidir, ikinci əhəmiyyətli səbəb ürək xəstəlikləri və digər xərçəng növləridir.

3. Tamamilə kimyəvi.

Siqaretin tərkibində arsen, qurğuşun, azot oksidi, dəm qazı, amonyak və başqa 43 kanserojenlər mövcuddur.

4. Kent nədir belə?

1950-ci illərin əvvəllərində "Kent" siqaretinin tərkibində "crocidolite osbestos" adlanan məşhur konserojen filterin bir hissəsini təşkil edirdi.

5. Şübhəli ətir.

Siqaretə "ətir" vermək üçün əsas kimyəvi tərkib olan sidik cövhərindən istifadə olunur.

6. + 18.

İndi bir çox ölkələrdə siqaretlərin üzərində +18 yazılsa da, 20 il əvvəl Yaponiyada bu yaş həddi 16 idi.

7. Tüstü sağlamlığı.

Alimlər iddia edirlər ki, siqaret çəkən ömrünün 14 ilini itirir. Lakin bu o demək deyil ki, siqaret çəkən gənc yaşda ölür. Onun həyatının "normal" davamlılıq müddəti uzun da ola bilir.

Anar QURBANOV
akurban78@hotmail.com

Sual Cavab

Sual: Qurban kəsmək vacibdir, yoxsa sünnə?

Cavab: Qurban bayramında qurban kəsməklə məsul olan hər bir kəsin, Allaha yaxınlaşmaq niyyəti ilə kəsdiyi qurbanın hökmü mövzusunda vacib və ya sünnə olmaqla iki rəy vardır. Belə ki, hənəfilərdəki əsas fikrə görə qurban kəsmək vacibdir. Bu mövzuda əsaslandırdıqları dəlillər bunlardır: Quranda Hz. Peyğəmbərə xitabən **"Rəbbin üçün namaz qıl və qurban kəs!"** (Kövsər, 108/2) əmri əməl baxımından "vaciblik" bildirir. Çünki sırf Hz. Peyğəmbərə aid olduğu bildirilməyən əmr Hz. Peyğəmbərin (s.ə.s) timsalında ümmətini də əhatə edir. Lakin ayədə cəm şəkilçisinin olmaması dəlalət (ifadə etdiyi məna) baxımından zənn əmələ gətirdiyi üçün qurbanın hökmü fərz deyil, vacibdir.

Digər bəzi hədislər də qurbanın bu mənasını dəstəkləyir. Hz. Peyğəmbər (s.ə.s): *"Qurban kəsin! Şübhəsiz bu, atanız İbrahimin (ə.s) sünnəsidir (tutduğu yoldur)"*, – buyurmuşdur (İbn Macə, Ədahi, 3). Bu hədisdə Rəsulullah (s.ə.s.) qurban kəsməyi əmr etmişdir. Mütləq əmr forması isə, əməl baxımından vaciblik bildirir. Əbu Hüreyrədən (r.ə) rəvayət edilən bu hədis də qurbanın vacibliyi fikrini qüvvətləndirir: *"Kim bolluq və imkan tapdığı halda qurban kəsməzsə, bizim namazgahımıza yaxınlaşmasın!"* (İbn Macə, Ədahi, 3). Bu tərzdə edilən tənbeh yalnız vacibin tərki üçün edilə bilər. Bununla birlikdə, bəzi hədislərdə qurbanın ümmət üçün sünnə olduğunun bildirilməsi vacibliyinə mane təşkil etmir. Çünki sünnə izlənən yol mənasına gəlir. Belə ki, Məhəmməd ibn Sirin qurbanın vacib olub-olmadığını soruşduqda, Abdullah ibn Ömər (rə) bu cavabı vermişdir: "Rəsulullah (s.ə.s.) və ondan sonra müsəlmanlar qurban kəsmişlər və bu mövzuda sünnə meydana gəlmişdir".

Qurban kəsmək hənəfilərdən başqa digər əksər alimə görə sünnədir. Gücü çatanın onu tərk etməsi məkruhdur. Məzhəb imamlarının əksəriyyəti bu mövzuda Quranda açıq hökmün olmadığını, Hz. Peyğəmbərin mütəmadi olaraq etdiyi qurban fəaliyyətini isə "sünnə" kimi dəyərləndirilməsinin məqsədəuyğun olduğunu vurğulamışlar. Onların əsaslandığı bir neçə hədis vardır. Belə ki, İbn Abbas belə demişdir: "Hz. Peyğəmbərin belə buyurduğunu eşitdim: *Üç şey vardır ki, mənə fərzdir, sizin üçün nafilədir: Vitr namazı, qurban kəsmək və zuha namazı"* (Əhməd İbn Hənbəl, I, 231).

İslam hüquqşünaslarının əksəriyyəti qurban kəsməyi, uşaq dünyaya gəldikdə kəsilən əqiqə qurbanına qiyas etmişlər. Eyni zamanda qurban kəsməyənlə bağlı tənbeh məzmunlu hədis də, cümə günü qüsl almağı bildirən bu hədisə oxşayır:

"Cümə günü qüsl almaq yetkinlik çağına çatan hər bir kəsə vacibdir" (Buxari, Azan, 161, Cümə, 2, 3, 12, Şəhadat, 18; Müslim, Cümə, 4, 7). Halbuki, bu qüsl vacib deyil, müsətəhəb hökmündədir.

Bundan əlavə, Hz. Əbu Bəkr və Ömərin bir neçə dəfə qurban kəsmədiklərinə dair rəvayətlər də buna dəlalət edir. Onların qurban kəsməmələrinin səbəbi, insanların bunu vacib hesab etmələrindən qorxmaları idi. Lakin hənəfilər onların bir və ya iki il qurban kəməməyini nisab miqdarı mala sahib olmamaları ilə izah edirlər.

Sual: Yetkinlik yaşına çatmış bir qız ailəsindən gizli evlənə bilərmi?

Cavab: Həddi-büluğa çatmış bir qızın valideynlərindən xəbərsiz evlənməsi hənəfilərə görə etibarlı, hənəfilərdən başqa digər üç məzhəbə görə isə etibarsızdır. Onlar nikahda vəlinin icazəsini şərt qoşurlar. Bu mövzuda söykəndikləri ayeyi-kərimə və hədisi-şəriflər vardır. Belə ki, "Nur" surəsinin 32-ci ayəsindəki **"Aranızda olan subay kişiləri və ərsiz qadınları evləndirin"** xitabında "evlənsinlər" deyilməyib "evləndirin" deyilmişdir. Elə isə, bunu yerinə yetirən bir nəfər olmalıdır ki, o da vəlidir. Sözügedən üç məzhəbin istinad etdiyi başqa dəlillər də vardır. Onlardan bəziləri belədir:

Hz. Peyğəmbərimiz (s.ə.s.): *"Hər hansı bir qadın vəlisinin icazəsi olmadan nikahlanarsa, onun nikahı etibarsızdır"*, – buyurmuş və bunu üç dəfə təkrar etmişdir (Əbu Davud, Nikah, 18-19; Tirmizi, Nikah, 14). Digər bir hədisdə isə belə buyurulur: *"Vəlisiz nikah yoxdur"* (Əbu Davud, Nikah, 18-19; Tirmizi, Nikah, 14).

Nikahda vəlinin icazəsinin şərt olmaması, sadəcə, Hənəfi məzhəbinin rəyidir. İmamı-Əzəm Əbu Hənifə və onun tələbəsi İmam Əbu Yusif ağlı başında olub həddi-büluğa çatan bir qızın öz istəyi ilə evlənə biləcəyini, atasının və yaxud anasının icazəsini almasının vacib olmadığını bildirmişlər. Ancaq valideynlər sonradan kürəkənlərinin qızlarının tayı-bərabəri olmadığını görsələr, nikah müqaviləsini pozmaq hüququna sahibdirlər. Buradan aydın olur ki, Hənəfi məzhəbi də məsələni tamamilə "müstəqillik" çərçivəsində dəyərləndirib sərbəstlik vermir. Bundan əlavə, baxmayaraq ki, qızın atasından icazə alması vacib deyil, lakin məzhəbdə əsas olan rəylərdən biri də, əxlaqi cəhətdən valideynlərin xəbərdar olmasına ehtiyac vardır. Çünki ailə həyatının daha sonra sağlam formada davam etməsi və valideynlərlə övladlar arasında küskünlüyün olmaması üçün, xəbər vermək və onların razılığını almaq mühüm əhəmiyyət kəsb edir.

Xülasə, şahidlərin mövcud olması nikahın etibarlı olması üçün kifayət hesab olunsa da, nikahın elan edilməsi və vəlinin icazəsinin alınması hal-hazırda daha çox əhəmiyyətlidir. Çünki günümüzdə gizli evliliklərdən bir çox insan əziyyət çəkir və neçə-neçə valideynlərin övladları ilə araları dəymiş vəziyyətdədir. Məhz bu səbəbdən cəmiyyətdə müxtəlif problemlər yaşanmaqdadır. Halbuki, müsəlman, cəmiyyəti alt-üst etmək üçün yox, sağlam bir cəmiyyət meydana gətirmək üçün evlənməlidir. Odur ki, övladlar evlənmək istədiklərində tələsməməli, hisslərinə məğlub olmamalı, ağıllı hərəkət etməli, öz fikirləri ilə yanaşı, valideynləri ilə də məsləhət etməli, onların razılığını almalı və yaxınlarından xəbərsiz evlənməməlidir. Başqa sözlə, insanlar evlənərkən sırf özlərini düşünməməli, cəmiyyətin nüvəsi olan ailə qurumunu, orada böyüyüb başa çatacaq uşaqların gələcəyini və bütün bunların daim arxasında olan valideynləri də düşünərək evlənməlidirlər.

"QAFQAZ İSLAM ORDUSU" YAD EDİLDİ...

16.09.2013-cü il tarixində Gəncliyə Yardım Fondunun (GYF) H. Z. Tağıyev adına konfrans zalında təşkil edilən nahar yeməyində T. C. Böyük Millət Məclisinin üzvü Sinan Oğan, Türkiyə Aydınlar Ocağının başqanı İbrahim Öztek, Bakının erməni işğalından azad edilməsində müstəsna xidmətləri olan Kazım Karabekir Paşanın qızı Timsal xanım, TADEF başqanı, sabiq millət vəkili Aziz Kaygusuz, "Uluslararası Azərbaycan Mədəniyyət Dil Tarix Kültür Araşdırmalar" mərkəzinin sədri Seyfettin Ayakyay, habelə daha 8 nəfər hörmətli qonaq iştirak etmişdir. Türkiyədən gəlmiş qonaqlar və millət vəkili, professor Musa Qasımlı Gəncliyə Yardım Fondunun qonağı olub.

"Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin dəvətilə Bakıda keçirilən "Qafqaz İslam Ordusu"nun Bakının bolşevik-daşnak işğalından azad etməsinin 95-ci ildönümünə həsr olunmuş tədbirdə iştirak etmək üçün gələn qonaqlar fondun fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Fonda gələn qonaqlara daim inkişafda olan Azərbaycan haqqında geniş məlumat verilmişdir.

Görüş yemək süfrəsi arxasında davam etmişdir. Qonaqlara Gəncliyə Yardım Fondunun fəaliyyətlərini əks etdirən video-rolik təqdim edildikdən sonra GYF tərəfindən müxtəlif hədiyyələr təqdim olunmuşdur.

Sonunda xatirə şəkli çəkilmişdir.

GYF-NİN FƏALİYYƏTLƏRİ QONAQLARI HEYRAN ETDİ

10.09.2013-cü il tarixində Türkiyədən gəlmiş qonaqlar və millət vəkili, professor Musa Qasımlı Gəncliyə Yardım Fondunun (GYF) qonağı olub.

«İslahatçı Gənclər» İctimai Birliyinin dəvətilə Bakıda səfərdə olan İstanbul Türk Ocağı Gənclik Qolları təmsilçisi Almıla Maraş və onun rəhbərliyi altında olan nümayəndə heyəti fondun fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Fondun kollektivi ilə görüşən qonaqlara günü-gündən inkişaf edən Azərbaycan haqqında geniş məlumat verilib.

Çay süfrəsi ərtafında davam edən görüşdə Fondun həyata keçirdiyi fəaliyyətləri özündə əks etdirən video-rolik nümayiş etdirilmişdir. Gəncliyə Yardım Fondunun prezidenti A. Tecim qonaqlara Qarabağ həqiqətləri haqqında geniş məlumat vermişdir.

Qonaqlar Gəncliyə Yardım Fondunun bütün kollektivinə bu uğurlu fəaliyyətlərinə görə öz təşəkkürlərini bildirdilər və Gəncliyə Yardım Fonduun həyata keçirdiyi layihələrin iki dövlət arasındakı qardaşlıq əlaqələrinin daha da inkişafındakı əhəmiyyətindən danışdılar.

Görüşün sonunda qonaqlara qarşılıqlı hədiyyələr o cümlədən "Qarabağ: Suallar və Faktlar" və "Qardaş Köməyi" kimi milli-mənəvi dəyərlərimizi özündə əks etdirən kitablar təqdim edilmişdir.

Sonda xatirə şəkilləri çəkilmişdir.

III BAKI BEYNƏLXALQ KİTAB SƏRGİ-YARMARKASI KEÇİRİLDİ

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçirilmişdir. İlk dəfə olaraq açıq havada - Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının arasındakı ərazidə (Rəşid Behbudov küçəsindən Bülbül prospektinə qədər) gerçəkləşəcək beynəlxalq kitab bayramı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunub. Sərgi-yarmarkaya 100-dən çox yerli və 23 ölkədən 40-dan çox xarici nəşriyyat və kitab sənəti ilə bağlı Təşkilat qatılmışdır.

Ölkəmiz 2006-cı ildən müntəzəm olaraq beynəlxalq kitab sərgilərində təmsil olunur. Azərbaycan kitabları Moskva (Rusiya), Frankfurt (Almaniya), Varşava (Polşa), Pekin (Çin), İstanbul (Türkiyə), Əbu-Dabi (BƏƏ), Saloniki (Yunanıstan), İsgəndəriyyə (Misir), Minsk (Belarus), London (Böyük Britaniya), Tehran (İran), Paris (Fransa), Budapeşt (Macarıstan), Praqa (Çexiya), Kiyev (Ukrayna) və sair şəhərlərdə beynəlxalq kitab sərgi-yarmarkalarında nümayiş etdirilərək ziyarətçilərin böyük marağına səbəb olur, yüksək keyfiyyətli poliqrafiya nümunələrimiz müsabiqələrdə uğur qazanır. Ümumiyyətlə, ötən müddət ərzində Azərbaycan Kitabı 40-dan çox beynəlxalq sərgidə təmsil olunub.

Builki sərgi-yarmarka həm iştirakçı sayına, həm də zəngin proqramına görə seçilir. Yarmarka 1000 kv. metrdən çox ərazini əhatə etməklə 130 ekspozisiya köşkündən ibarət olub. Respublikanın 500-dən çox tanınmış insanı - dövlət adamları, millət vəkilləri, yazıçı və şairlər, alimlər kitab bayramına dəvət olunub. Sərgi günlərində Azərbaycan Milli Kitabxanasının 90 illiyi də qeyd olunub. Eyni zamanda iki beynəlxalq tədbir - Avropa Milli Kitabxanaları Konfransının (CENL) XXVII illik iclası və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının XV ümumi iclası da sərgi-yarmarkanın keçirildiyi günlərə təsadüf edib. Dünyanın 50-yə yaxın ölkəsindən bu tədbirlərə qatılan nümayəndələr sərgidə iştirak edib. Sərginin proqramında aparıcı mövzu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə bağlıdır. Bununla əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin nəfis tərtibatlı böyük bir nəşrinin - "Heydər Əliyev adına" foto-albomunun təqdimatı olub.

qadın geyimləri

tuwa

HİCABLI QADIN GEYİMLƏRİNDƏ
BOL ÇEŞİD VƏ İNANILMAZ UCUZLUQ

İrfan Abunəçilərinə
Əlavə Endirimlər
Nəzərdə Tutulur!

Ünvan:
Binə Ticarət Mərkəzi
Sıra 7A, korpus 3,
mağaza 28 (keçid)

Tel:
(+ 994 55) 208 72 55
(+ 994 12) 408 40 43

manto
tunik
kostyum
yubka
şalvar